







# Azərbaycan üzrə Ölkə Strategiyası

## 2025-2030

29 yanvar 2025-ci ildə İdarə Heyəti tərəfindən təsdiq edilmişdir

European Bank
for Reconstruction and Development

"Bu sənədin məxəz mətninin tərcüməsi AYİB tərəfindən yalnız oxucunun rahatlığı üçün təqdim edilir. AYİB tərcümənin düzgünlüyünü təmin etmək üçün ağlabatan tədbirlər görsə də, tərcümənin dəqiqliyinə zəmanət vermir və onun dəqiqliyini təsdiq etmir. Hər hansı bu cür tərcümədən istifadədən qaynaqlanan risk oxucuya mənsubdur. Heç bir halda AYİB, onun əməkdaşları və ya təmsilçiləri səbəbindən asılı olmayaraq tərcümənin məzmunundakı hər hansı qeyri-dəqiqlik, səhv, ötürülmə, silinmə, nöqsan və/və ya hər hansı dəyişiklik, yaxud bunlardan irəli gələn hər hansı zərərə görə oxucu və ya başqaları qarşısında qarşı məsuliyyət daşımır. İngilis versiyası ilə tərcümə edilmiş versiya arasında hər hansı uyğunsuzluq və ya ziddiyyət yarandığı halda, ingilis dilində olan versiya üstünlük təşkil edəcək."

# Mündəricat və izahlı lüğət

European Bank
for Reconstruction and Development

## Mündəricat


| | | |
|---|---|---|
| | Qısa xülasə | 4 |
| | Azərbaycan– AYİB: Qısa icmal | 5 |
| I. | Əvvəlki strategiyanın icrası (2019 - 2024) | 6 |
| | Əvvəlki strategiya müddətində əldə olunmuş əsas keçid nəticələri | 6 |
| | İcra ilə bağlı yaranan çətinliklər və öyrənilmiş əsas dərslər | 8 |
| II. | İqtisadi kontekst | 9 |
| | Makroiqtisadi kontekst və strategiya müddəti üçün gələcəyə baxış | 9 |
| | Keçidlə bağlı əsas çətinliklər | 10 |
| III. | Hökumət prioritetləri və maraqlı tərəflərin cəlb edilməsi | 12 |
| IV. | Azərbaycan üzrə Ölkə Strategiyasının prioritetlərinin müəyyənləşdirilməsi | 13 |
| V. | Fəaliyyətlər və Nəticələr Çərçivəsi | 14 |
| VI. | Beynəlxalq tərəfdaşların AYİB-in fəaliyyət sahələrində yaratdığı sinergiyanın sxemləşdirilməsi | 16 |
| VII. | İcra ilə bağlı risklər və ətraf mühit və sosial sahəyə təsirlər | 17 |
| VIII. | Donorlarla tərəfdaşlıqların qiymətləndirilməsi | 18 |
| | Əlavə – Siyasi qiymətləndirmə | 19 |


## Əsas terminlərin izahlı lüğəti

| | | | |
|---|---|---|---|
| İBİ | İllik biznes investisiyası | BVF | Beynəlxalq Valyuta Fondu |
| AsİB | Asiya İnkişaf Bankı | YV | Yerli valyuta |
| AİH | Azərbaycan İnvestisiya Holdinqi | mC | Meqacoul |
| KBM | Kiçik sahibkarlıq subyektlərinə məsləhət | AM | Anlaşma Memorandumu |
| QDTİB | Qara Dəniz Ticarət və İnkişaf Bankı | MKOM | Mikro, kiçik və orta müəssisələr |
| ARMB | Azərbaycan Respublikasının Mərkəzi Bankı | RİY | Rəsmi inkişaf yardımı |
| İQİ | İstehlak qiymətləri indeksi | İƏİT | İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı |
| VCT | Vətəndaş cəmiyyəti təşkilatı | TMİ | Tərəfdaş maliyyə institutları |
| ƏMSS | Ətraf Mühit və Sosial Sahə | PISA | Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramı |
| ES | Enerji səmərəliliyi | DÖƏ | Dövlət-özəl əməkdaşlığı |
| EIB | Avropa İnvestisiya Bankı | AQP | Alıcılıq qabiliyyəti pariteti |
| ƏMSİ | Ətraf mühit, sosial sahə və idarəetmə | PR2 | Məhsuldarlıq tələbləri |
| Aİ | Avropa İttifaqı | BOE | Bərpa olunan enerji |
| E5P | Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf Mühit sahəsində Tərəfdaşlıq Fondu | RBÇ | Riskləri Bölüşmə Çərçivəsi |
| BXİ | Birbaşa xarici investisiya | KBTF | Kiçik Bizneslərə Təsir Fondu |
| Mİ | Maliyyə institutu | SECO | İsveçrənin İqtisadi Məsələlər üzrə Dövlət Katibliyi |
| ÜDM | Ümumi Daxili Məhsul | KOM | Kiçik və orta müəssisə |
| YİK | Yaşıl iqtisadiyyata keçid | DMM | Dövlətə məxsus müəssisə |
| İQ | İstixana qazı | SXF | Səhmdarların Xüsusi Fondu |
| İFYTT | İqlim Fəaliyyəti üzrə Yüksək Təsirli Tərəfdaşlıq | TƏ | Texniki əməkdaşlıq |
| SKA | Sənaye, Kommersiya və Aqrobiznes | ÜET | Ümumi Enerji Təchizatı |
| MK | Məcburi köçkün | TAP | Ticarətin Asanlaşdırılması Proqramı |
| BEA | Beynəlxalq Enerji Agentliyi | TMT | Telekommunikasiya, media və texnologiya |
| BMK | Beynəlxalq Maliyyə Korporasiyası | TPTT | Texniki və peşə təhsili və təlimi |
| BEA | Beynəlxalq Enerji Agentliyi | QB | Qadınlar Biznesdə |
| BMİ | Beynəlxalq maliyyə institutu | GB | Gənclər Biznesdə |

# Qısa xülasə

Azərbaycanın Bankın Təsis edilməsinə dair Sazişinin 1-ci Maddəsində qeyd edilmiş siyasi prinsipləri əsas tutmaq və tətbiq etmək öhdəliyi bundan əvvəlki Ölkə Strategiyası dövründə insan hüquqlarının və əsas azadlıqların qorunması, xüsusən də toplaşmaq, birləşmək və ifadə azadlıqlarının məhdudlaşdırılması ilə bağlı beynəlxalq səviyyədə narahatlıqlarla səciyyələnib. Məhkəmə sistemində, eləcə də korrupsiya ilə mübarizə tədbirlərinin qəbulunda bəzi dəyişikliklər müşahidə olunsa da, mühüm problemlər qalmaqda davam edib.

Əvvəlki strategiya dövründə Azərbaycan iqtisadiyyatı enerji qiymətlərindəki dəyişikliklərə həssas olub və zəif artım müşahidə olunub. Enerji qiymətlərinin artması fonunda, 2021 və 2022-ci illərdə iqtisadi mənzərə müvəqqəti olaraq yaxşılaşsa da, ölkənin neft və qazdan yüksək dərəcədə asılılığı gəlir fərqinin azalmasına və qeyri-neft sektorunun inkişafına mane olmağa davam edib. İxrac strukturunun şaxələndirilməsi istiqamətində bəzi səylər göstərilsə də, əsasən aşağı əlavə dəyərli məhsullarla, ümumi struktur demək olar ki, dəyişməz qalıb. Yaxın gələcəkdə enerji ixracı iqtisadi artıma təkan verməyə davam edəcək.

Azərbaycanın siyasi iqtisadiyyatı ölkənin mərkəzləşdirilmiş siyasi sistemi və resurslara əsaslanan iqtisadi modeli ilə səciyyələnir. Son illərdə bəzi irəliləyişlər əldə edilsə də (məsələn, iri DMM-lərin idarəetmə və əməliyyat fəaliyyətlərini gücləndirmək məqsədini daşıyan dövlət investisiya holdinqlərinin yaradılması), sistematik və ardıcıl islahat gündəliyinin həyata keçirilməsi çətinlik yaradıb. Xarici investisiyaların cəlb edilməsi yeni strategiya dövründə özəl sektorun inkişafına və islahat gündəliyinə dəstək olmaq üçün mühüm əhəmiyyət kəsb edəcək. Bu baxımdan, hüquqi-məhkəmə sistemindəki çatışmazlıqların aradan qaldırılması, yüksək gömrük tarifləri və iri DMM-lərin mövcudluğu kimi sahələrdə çatışmazlıqların aradan qaldırılması da daxil olmaqla, biznes mühitinin daha da təkmilləşdirilməsi tələb olunacaq.
Geosiyasi qeyri-müəyyənliklər və enerji şaxələndirilməsinin zəruriliyi Azərbaycanın enerji təchizatçısı və nəqliyyat qovşağı kimi rolunu möhkəmləndirmiş, Orta Dəhlizə və onun potensial ticarət faydalarına marağı yenidən canlandırmışdır. Bu imkanlar hələ də əsasən tam istifadə edilməsə də, hökumət ölkəni beynəlxalq nəqliyyat şəbəkələrinə daha yaxşı birləşdirmək üçün bir sıra multimodal layihələr həyata keçirməkdədir. Bərpa olunan enerji və enerji səmərəliliyinə artan marağa baxmayaraq, hasilat sənayesinin gətirdiyi iqtisadi faydalar və enerji ilə yüksək özünütəminetmə səviyyəsi bu günə qədər yaşıl keçidlə bağlı hədəfləri məhdudlaşdırıb.

Bu amilləri nəzərə alaraq, Bank gələcəkdə Azərbaycanın istifadə edilməmiş günəş və külək enerjisi potensialını dəyərləndirməsinə kömək etməyə çalışacaq, bu çərçivədə elektrik şəbəkəsini gücləndirməyə və bərpa olunan enerji ixracını dəstəkləməyə, həmçinin ölkənin dayanıqlılığını və iqlimə davamlılığını daha da artırmağa səy göstərəcəkdir. Bundan əlavə, Bank qeyri-hasilat sektoruna və kiçik və orta müəssisələrə maliyyə yardımı göstərərək, ixracatı təşviq edərək və dayanıqlı inkişafı stimullaşdırmaq üçün regional əlaqələri gücləndirərək iqtisadiyyatın daha çox şaxələndirilməsini və özəl sektorun inkişafını dəstəkləməyə səy göstərməyə davam edəcəkdir. Bununla, Bankın növbəti Strateji və Kapital Çərçivəsində idarəçiliyin davamlı mühüm rolunu nəzərə alaraq, Bank öz investisiyalarını prioritetlər üzrə əsaslı siyasət tədbirləri ilə uzlaşdırmaqla, idarəçiliyin gücləndirilməsini dəstəkləyəcəkdir.

Buna görə də, Bank 2025-2030-cu illərdə Azərbaycanda aşağıdakı strateji prioritetləri həyata keçirməyi planlaşdırır:

- Daha güclü, daha rəqabətqabiliyyətli və inklüziv özəl sektor və təkmilləşdirilmiş idarəçilik vasitəsilə daha böyük iqtisadi şaxələndirməni təşviq etmək; və
- Yaşıl İqtisadiyyata Keçidi sürətləndirmək və regional əlaqəliliyi yaxşılaşdırmaq.

# Azərbaycan– AYİB: Qısa icmal

European Bank
for Reconstruction and Development

## AYİB-in Azərbaycanda investisiya fəaliyyətləri *(2024-cü ilin iyun ayına)*

| | | | |
|---|---|---|---|
| Portfel | €1,030 mln | Davam edən layihələr | 33 |
| Səhm kapitalı | 1% | Əməliyyat aktivləri | €754 milyon |
| Özəl səhm[1] | 86.5% | Xalis ümumi investisiya | €4,040 mln |

### İBİ və əməliyyatlar




### Portfelin tərkibi




### Portfelin dinamikası




### Keçid dövrünün çatışmazlıqları[2]




## Azərbaycan üzrə əsas göstəricilər

| | | |
|---|---|---|
| Əhali (milyon)[3] (2022) | 10.1 | Gürcüstan (3.7)<br>Moldova (2.5)<br>Qazaxıstan (19.8) |
| Adam başına düşən ÜDM (AQP, 2017-ci ilin sabit ABŞ dolları ilə) [3](2022) | 15,214.7 | Gürcüstan (17,991.6)<br>Moldova (13,304.4)<br>Qazaxıstan (26,024.3) |
| Yeni biznes sıxlığı[4] (əhalinin hər 1000 nəfərinə düşən yeni qeydiyyatların sayı, 2020) | 1.3 | Gürcüstan (7.5)<br>Moldova (1.9)<br>Qazaxıstan (3.5) |
| İşsizlik (%)[5] (2022) | 5.6 | Gürcüstan (17.3)<br>Moldova (0.9)<br>Qazaxıstan (4.9) |
| Gənclər arasında işsizlik (%)[5] (2022) | 13.6 | Gürcüstan (30.4)<br>Moldova (2.8)<br>Qazaxıstan (3.8) |
| Qadınların işçi qüvvəsində iştirak səviyyəsi (%)[5] (2022) | 74.6 | Gürcüstan (60.9)<br>Moldova (73.3)<br>Qazaxıstan (73.1) |
| Enerji intensivliyi, ÜET/ÜDM (mC, 2017-ci ilin ABŞ dolları ilə AQP)[6] (2020) | 4.7 | Gürcüstan (4.0)<br>Moldova (5.1)<br>Qazaxıstan (5.8) |
| Emissiyanın intensivliyi/ÜDM (kq CO2/2017-ci ilin ABŞ dolları ilə AQP) (2020)[6] | 0.2 | Gürcüstan (0.2)<br>Moldova (0.3)<br>Qazaxıstan (0.4) |

1 Məcmu bank investisiyası: Portfel üzrə 5 illik dövri əsasda; 2. Müq.et: AYİB Keçid Hesabatı 2021-2022; 3. BVF DII (Aprel 2024). 4 Sahibkarlıq Sorğusu və məlumatlar bazası (Moldova məlumatları 2018-ci ilə aiddir, çünki son məlumatlar yoxdur; 5 BƏT; 6 Dünya Bankı

# 1. Əvvəlki strategiyanın icrası (2019 - 2024)

## 1,1. Əvvəlki strategiya müddətində əldə olunmuş əsas keçid nəticələri (1/2)

European Bank
for Reconstruction and Development

### Strateji uyğunluq 2019 - 2024

**Məcmu illik biznes investisiyası (İBİ)**




YİK payı: 57%

**Texniki yardım və birgə investisiya vəsaitləri[1]**




**Keçidə təsir baxımından fəaliyyət səmərəliliyi[2]**




### Prioritet 1 | Rəqabətliliyi və yaxşı idarəçiliyi dəstəkləməklə iqtisadi şaxələnməni təşviq etmək

**Əsas kəmiyyət yönümlü nəticələr**




**Keçidlə bağlı əsas nəticələr**

- 2019-2023-cü illər arasında qida və içkilər, məişət texnikası və elektronika da daxil olmaqla müxtəlif sektorlarda aparıcı istehsalçılar və pərakəndə ticarətçilər üçün təxminən 94 milyon ABŞ dolları məbləğində maliyyə təmin edilməklə, KOM-ların maliyyəyə çıxışı gücləndirilib və şaxələndirilib.
- 5 illik fasilədən sonra, 2019-cu ildə mikro, kiçik və orta müəssisələrin (MKOM) maliyyələşdirilməsini bərpa etməklə, təxminən ilk kredit xəttindən 20 milyon ABŞ dolları məbləğində vəsait TMİ-lər vasitəsilə MKOM-lara yönəldilib, bunun 11,5 milyon ABŞ dolları kənd yerlərindəki kənd təsərrüfatı bizneslərinin dəstəklənməsinə ayrılıb
- 300-ə yaxın KOM-a, əməliyyat və daxili mühasibat standartlarını yaxşılaşdırmağa yönələn məsləhət xidmətləri təqdim edilib, “Qadınlar Biznesdə”, “Blue Ribbon” və “Star Venture” proqramları genişləndirilib və bu, sahibkarlığın inkişafını stimullaşdırmağa və özəl sektorun rəqabətqabiliyyətliliyini gücləndirməyə kömək edib
- “Aztelekom" milli telekommunikasiya operatoruna genişzolaqlı infrastrukturun genişlənərək 280,000-dən çox ev təsərrüfatına yayılması məqsədilə 50 milyon ABŞ dollarına qədər kredit ayrılıb, eyni zamanda Rəqabətlilik Təminatları və Korporativ İdarəçilik üçün Fəaliyyət Planlarının hazırlanması vasitəsilə islahatlara və yaxşı idarəçiliyə dəstək göstərilib.
- Avropa İttifaqının maliyyə dəstəyi ilə, qeyri-neft sektorlarında birbaşa xarici investisiyaları artırmaq və Avropa dəyər zəncirlərinə inteqrasiyanı gücləndirmək məqsədilə "AZPROMO” ixrac və investisiyanın təşviqi agentliyinə texniki yardım göstərilib.
- Kənd təsərrüfatı sektoruna dəstək olaraq, "Avrora" MMC-yə müasir makaron istehsalı müəssisəsinin maliyyələşdirilməsi və TVET üzrə təhsil müəssisəsi ilə əməkdaşlıqda təlim proqramının hazırlanması üçün 12.5 milyon avro kredit (ümumilikdə 25 milyon avro maliyyələşmə) ayrılıb.

1. Texniki yardım və birgə maliyyələşdirmə vəsaitləri üzrə məlumatlar - 2022-ci ilin dekabr ayına qədər; 2. Keçidə təsir edən fəaliyyət səmərəliliyi göstəriciləri layihələrin imzalanma zamanı gözlənilən keçidə təsirini nə dərəcədə əldə edəcəyinə dair ehtimalı əks etdirir. Davam edən və irəliləmiş (> 2 il) layihə portfeli əsasında hesablanır.

# 1. Əvvəlki strategiyanın icrası (2019 - 2024)

## 1.1. Əvvəlki strategiya müddətində əldə olunmuş əsas keçid nəticələri (2/2)

European Bank
for Reconstruction and Development

### Prioritet 2 | Maliyyə bazarlarının inkişaf etdirilməsi yolu ilə dayanıqlığı artırmaq

**Əsas kəmiyyət yönümlü nəticələr**




**Keçidlə bağlı əsas nəticələr**

- Digər vasitələrlə yanaşı, törəmə maliyyə alətləri və sekuritizasiya sahələrində qanunvericiliyin təkmilləşdirilməsinə (hazırda Azərbaycan Respublikası Mərkəzi Bankı və Milli Məclis tərəfindən nəzərdən keçirilir) dəstək göstərməklə kapital və pul bazarlarının inkişafı stimullaşdırılıb.
- Valyuta məzənnəsinin müəyyənləşdirilməsini yaxşılaşdırmaq və bizneslərə yerli valyutada kredit verilməsini asanlaşdırmaq, o cümlədən COVID-19-un təsirlərini yüngülləşdirmək məqsədilə, Azərbaycan Respublikasının Mərkəzi Bankı (ARMB) ilə 200 milyon ABŞ dolları məbləğində svop müqaviləsi imzalanıb.
- Beynəlxalq maliyyə institutlarının (BMİ) yerli valyutada istiqraz buraxılışları üçün maliyyə bazarı şərtlərini yaxşılaşdırmaq məqsədilə ARMB ilə əməkdaşlıq edilib.
- Bank sektorunun böhranından sonra, daxili proseslərin səmərəliliyinin və şəffaflığının artırılması, təşkilati strukturların təkmilləşdirilməsi, balans strukturu və mənfəətliliyin yaxşılaşdırılması və digər vasitələrlə davamlılığı və dayanıqlığı bərpa etmək və gücləndirmək məqsədilə, seçilmiş TMİ-lər üçün potensialın artırılması proqramı icra olunub.
- Azərbaycanın Pul Bazarının inkişafı məqsədilə ARMB-yə (i) 2019-cu ildə diaqnostik tədqiqat, (ii) biliklərin paylaşılması və (iii) AYİB-in təklif etdiyi Pul Bazarı üzrə İşçi Qrupu çərçivəsində sektor üzrə müzakirələr vasitəsilə köməklik göstərilib.
- ARMB-yə maliyyə institutları sektoru üçün ƏMSİ üzrə Yol Xəritəsinin hazırlanması və qəbul edilməsində, o cümlədən yaşıl istiqraz qanunvericiliyinin tətbiqində köməklik göstərilib. Bundan əlavə, ARMB ilə birlikdə yerli banklar üçün Keçid İqlim Riski üzrə master-klasslar silsiləsi keçirilmişdir.

### Prioritet 3 | Yaşıl İqtisadiyyata Keçid və Regional Əlaqəni dəstəkləmək

**Əsas kəmiyyət yönümlü nəticələr**




**Keçidlə bağlı əsas nəticələr**

- 240 meqavatlıq (MVt) külək elektrik stansiyasının tikintisi üçün 167 milyon ABŞ dollarına qədər birgə maliyyələşdirmə həyata keçirilib. Bu, ölkədə ilk xüsusi mülkiyyətdə olan iri miqyaslı külək elektrik stansiyası layihəsi və Qafqazda ən böyük bu növ layihədir və karbon emissiyasını illik 400 000 tondan çox azaltması gözlənilir.
- Azərbaycanın ilk xüsusi mülkiyyətdə olan iri miqyaslı günəş enerjisi layihəsini istifadəyə vermək üçün 230 meqavat (MVt) gücündə fotovoltaik (PV) günəş elektrik stansiyasının qurulmasına 19,5 milyon ABŞ dolları investisiya edilib. Bu layihə milli dekarbonizasiya gündəliyini dəstəkləməyə və ixrac üçün ayrıla bilən yerli qaz həcminin artırılmasına kömək edir.
- Azərbaycanda iki günəş elektrik stansiyasının (760 MVt birləşmiş gücü ilə) tikintisi üçün 160 milyon ABŞ dollarına qədər birgə maliyyələşdirilən Qafqazda ən böyük bərpa olunan enerji layihələrinin hər il 600.000 tondan çox $CO_2$ qənaət edəcəyi gözlənilir.
- KOB-ların Rəqabət Qabiliyyəti və İnklüziv Proqramı çərçivəsində yerli banka verilən ilk "yaşıl yönümlü" kredit genişləndirildi və KOB-ları dəstəkləmək üçün 2024-cü ildə yerli bankla Risk Paylaşımı Mexanizmi yenidən start verildi.
- Azərbaycan E5P çərçivəsinə qoşulduqdan sonra, yüksək səviyyəli qiymətləndirmə tamamlanıb. Qiymətləndirmə 5 layihənin E5P qrantlarına uyğunluğunu müəyyən etmək üçün onların ilkin texniki-iqtisadi əsaslandırma tədqiqatı üçün seçilməsi ilə nəticələnib.
- Gəncədə Yaşıl Şəhərlər proqramının icrasına başlanılıb və şəhərin bərk tullantıların idarə edilməsi sistemlərinin (10 milyon avro) və küçə işıqlandırma şəbəkələrinin (12,5 milyon avro) müasirləşdirilməsinə yönələn ilkin layihələr həyata keçirilib və Gəncə şəhəri üçün Yaşıl Şəhər Fəaliyyət Planı hazırlanmışdır (2024-cü ilin aprelində qəbul edilmişdir)
- Azərbaycanın tranzit, idxal və ixrac təyinatlı yükdaşıma qabiliyyətini və təchizat zəncirinin dayanıqlılığını artırmaq məqsədilə, istehsalçı "Gemza Group"a (5.6 milyon avro) və daşıma xidmətləri təminatçısı "W&E Forward" şirkətinə (4 milyon ABŞ dolları) kreditlər verilib. Bu kreditlər müvafiq olaraq üç quru anbar və bir soyuducu anbarın tikintisi üçün ayrılıb.
- Energetika Nazirliyinə Enerji Məsələlərini Tənzimləmə Agentliyinin yaradılmasında, bərpa olunan enerji hərraclarının həyata keçirilməsində, aşağı karbonlu hidrogen bazarının tədqiqatının və Milli Hidrogen Strategiyasına Baxış-ın hazırlanmasında, elektrik verilişi şəbəkəsinə bərpa olunan enerji layihələrini inteqrasiya etmək potensialının qiymətləndirilməsində və kiçik miqyaslı bərpa olunan enerji üçün hüquqi çərçivənin hazırlanmasında köməklik göstərilib. 2022-ci ilin sonlarında energetika sektorunda əməkdaşlığı davam etdirmək, o cümlədən energetika sektoru üçün karbonun azaldılması yanaşmasını hazırlamaq məqsədilə yeni Anlaşma Memorandumu imzalanıb.

# 1. Əvvəlki strategiyanın icrası (2019 - 2024)

## 1,2. İcra ilə bağlı yaranan çətinliklər və öyrənilmiş əsas dərslər

European Bank
for Reconstruction and Development

### İcra konteksti

Əvvəlki strategiya dövründə Azərbaycan iqtisadiyyatı enerji qiymətlərindəki dəyişikliklərə həssas olub və zəif artım müşahidə olunub. Enerji qiymətlərinin artması fonunda, 2021 və 2022-ci illərdə iqtisadi mənzərə müvəqqəti olaraq yaxşılaşsa da, ölkənin neftdən yüksək dərəcədə asılılığı gəlir fərqinin azalmasına və qeyri-neft sektorunun inkişafına mane olmağa davam edib. İxrac strukturunun şaxələndirilməsi istiqamətində bəzi səylər göstərilsə də, əsasən aşağı əlavə dəyərli məhsullarla, ümumi struktur demək olar ki, dəyişməz qalıb. Azərbaycanın siyasi iqtisadiyyatı ölkənin mərkəzləşdirilmiş siyasi sistemi və resurslara əsaslanan iqtisadi modeli ilə səciyyələnir. Son illərdə bəzi irəliləyişlər əldə edilsə də (məsələn, iri DMM-lərin idarəetmə və əməliyyat fəaliyyətlərini gücləndirmək məqsədini daşıyan dövlət investisiya holdinqlərinin yaradılması), sistematik və ardıcıl islahat gündəliyinin həyata keçirilməsi çətinlik yaradıb. Xarici investisiyaların cəlb edilməsi yeni strategiya dövründə özəl sektorun inkişafına və islahat gündəliyinə dəstək olmaq üçün mühüm əhəmiyyət kəsb edəcək. Bu baxımdan, hüquqi-məhkəmə sistemindəki çatışmazlıqların aradan qaldırılması, yüksək gömrük tarifləri və iri DMM-lərin mövcudluğu kimi sahələrdə çatışmazlıqların aradan qaldırılması da daxil olmaqla, biznes mühitinin daha da təkmilləşdirilməsi tələb olunacaq. Geosiyasi qeyri-müəyyənliklər və enerji şaxələndirilməsinin zəruriliyi Azərbaycanın enerji təchizatçısı və nəqliyyat qovşağı kimi rolunu möhkəmləndirmiş, Orta Dəhlizə və onun potensial ticarət faydalarına marağı yenidən canlandırmışdır. Bərpa olunan enerji və enerji səmərəliliyinə artan marağa baxmayaraq, hasilat sənayesinin gətirdiyi iqtisadi faydalar və enerji ilə yüksək özünütəminetmə səviyyəsi bu günə qədər yaşıl keçidlə bağlı hədəfləri məhdudlaşdırmağa davam edib. Bu amilləri nəzərə alaraq, Bank gələcəkdə Azərbaycanın istifadə edilməmiş günəş və külək enerjisi potensialını (o cümlədən ixracatçı kimi) dəyərləndirməsinə kömək etməyə çalışacaq, bu çərçivədə ölkənin dayanıqlılığını və iqlimə davamlılığını daha da artırmağa səy göstərəcəkdir. Bundan əlavə, Bank qeyri-hasilat sektoruna və kiçik və orta müəssisələrə maliyyə yardımı göstərərək, ixracatı təşviq edərək və dayanıqlı inkişafı stimullaşdırmaq üçün regional əlaqələri gücləndirərək iqtisadiyyatın daha çox şaxələndirilməsini və özəl sektorun inkişafını dəstəkləməyə səy göstərməyə davam edəcəkdir. Hər iki prioritet üzrə, Bank öz investisiyalarını idarəçiliyin gücləndirilməsini dəstəkləmək üçün əsaslı siyasət tədbirləri ilə uzlaşdıracaq.

| İcra ilə bağlı çətinliklər | Öyrənilmiş əsas dərslər və növbəti addımlar |
| --- | --- |
| • Məqbul qiymətli yerli valyutaya çıxış imkanında çətinliklər Bankın əlverişli maliyyə həlləri təklif etmək qabiliyyətini məhdudlaşdırıb. | • Yerli valyutaya çıxışı yaxşılaşdırmaq üçün, digər vasitələrlə yanaşı, birbaşa svop əməliyyatları və riskin paylaşılması alətləri kimi innovativ mexanizmlər vasitəsilə Mərkəzi Bankla əməkdaşlığı davam etdirmək |
| • DMM-lərin əhəmiyyətli iştirakı və özəl bizneslərlə hökumət arasındakı əlaqələr Bankın korporativ sektorda investisiya imkanlarını məhdudlaşdırıb və onun iqtisadi və korporativ idarəçiliyi yaxşılaşdırmaq qabiliyyətinə mane olub. | • Dövlət investisiya holdinqlərinin yaradılması digər vasitələrlə yanaşı DMM-lərin kommersiyalaşdırılması və özəlləşdirilməsi ilə bağlı çoxdan nəzərdə tutulan islahatlar vasitəsilə korporativ idarəçiliyi gücləndirmək üçün bir fürsət yarada bilər. |
| • Məhdud inzibati potensial və hökumətin uzun təsdiqetmə prosesləri TƏ və investisiya layihələrində gecikmələrə səbəb olub, suveren investisiyalarda irəliləyişə mane olub | • Enerji səmərəliliyi və digər yaşıl layihələr kimi strateji sektorlarda tərəfdaşlarla TƏ və potensialın artırılmasını gücləndirməyə çalışaraq, mümkün olduqda, suveren və sub-suveren kreditlər üçün Aİ-nin qarışıq maliyyələşdirməsindən də yararlanmaq. |
| • Geniş miqyaslı dövlət dəstəyi proqramları yerli özəl sektora kredit vermək və rəqabətqabiliyyətli daxili bazarı inkişaf etdirmək üçün imkanları məhdudlaşdırıb | • Subsidiya sistemini yenidən qurmaq üçün hakimiyyət orqanları ilə dialoqu inkişaf etdirmək, onu orta müddətli dövrdə bazar yönümlü stimullarla uyğunlaşdırmaq, eyni zamanda yeni sənaye liderlərini ön plana çıxaran əsaslı layihə portfeli hazırlamaq. |
| • Kreditləşmə səviyyəsi aşağıdır, bank sektorunun aktivləri ÜDM-in 30%-ni təşkil edir, eyni zamanda yerli banklar arasında yaxşı müştərilər üçün rəqabət yüksəkdir | • Donor resurslarından yararlanmaqla, əlavə TMİ-lər və maliyyə institutlarının yerli bazara yeni xüsusiyyətlər gətirən müştəriyönümlü məhsulları vasitəsilə, Bankın təsirini mümkün hallarda genişləndirməyə çalışmaq. |
| • Karbohidrogen sektoru xaricində birbaşa xarici investisiyaların olmaması əməliyyatların həyata keçirilməsinə və özəl sektorun inkişafına mane olub | • İqtisadi idarəçiliyi gücləndirmək, biznes mühitini yaxşılaşdırmaq və yeni sektorları xarici iştiraka açmaq məqsədi daşıyan ünvanlı tədbirləri dəstəkləmək. |

# 2. İqtisadi kontekst

## 2.1. Makroiqtisadi kontekst və strategiya müddəti üçün gələcəyə baxış

**Azərbaycan – Əsas Makroiqtisadi Göstəricilər**

| | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| ÜDM artımı (illik dəyişmə %) | 2.5 | -4,2 | 5,6 | 4,7 | 1,1 |
| İQİ inflyasiyası (orta %) | 2.6 | 2.8 | 6.7 | 13,9 | 8,8 |
| Dövlət balansı (ÜDM-in %-i) | 8.9 | -6,4 | 4,1 | 6,0 | Yoxdur |
| Cari əməliyyat hesabının balansı (ÜDM-in %-i) | 9.1 | -0.5 | 15.1 | 29.8 | 11.5 |
| Xalis BXİ (ÜDM-in %-i) *[mənfi göstərici daxilolmanı bildirir]* | 2.9 | 1.8 | 4.1 | 6.5 | 2.9 |
| Xarici borc (ÜDM-in %-i) | 47.2 | 55.7 | 43.6 | 31.5 | Yoxdur |
| Cəmi ehtiyatlar (ÜDM-in %-i) | 13.0 | 14.9 | 12.9 | 11.4 | 16.0 |
| Ümumi dövlətin cəmi borcu (ÜDM-in %-i) | 30.0 | 36.3 | 44.8 | 29.5 | Yoxdur |
| İşsizlik səviyyəsi (%) | 5.0 | 7.2 | 6.0 | 5.6 | 5.5 |
| Nominal ÜDM (mlrd ABŞ dolları) | **48.2** | **42.7** | **54.8** | **78.8** | **72.4** |

**Son iki ildəki güclü iqtisadi artım zəifləməyə başlayıb.** ÜDM 2022-ci ildə 4.7 faiz artmışdır ki, bu da qeyri-neft və qaz sektorunda güclü artımla (ildə 9.1 faiz) əlaqədar olub. Belə ki, neft və qazın yüksək qlobal qiymətlərinin ixrac gəlirlərini artırması fonunda böyük xarici valyuta axını bu sektora müsbət təsir göstərib. Lakin, 2022-ci ilin ikinci yarısında qlobal enerji qiymətlərinin nisbətən azalması və inflyasiya ilə əlaqədar real gəlirlərin azalması nəticəsində iqtisadi artım azalıb. 2023-cü ildə ÜDM artımı kəskin şəkildə azalaraq, əvvəlki illə müqayisədə 1.1 faizə enib.

**Pul siyasətinin sərtləşdirilməsi inflyasiyanı azaltmağa davam edir, lakin güclü daxili tələb mövcudluğunu saxlayır.** İnflyasiya 2022-ci ilin oktyabr ayında 15.6 faizə çatdıqdan sonra 2023-cü ildə 8.8 faizə qədər enib. Hakimiyyət orqanları ilk olaraq pul siyasətinin əhəmiyyətli dərəcədə sərtləşdirilməsi ilə reaksiya verib. ARMB 2023-cü ilin may ayında uçot dərəcəsini 9.0 faizə qaldırıb və bu, son iki ildə onuncu artım olub. Lakin istehlak qiymətlərinin azalmasını nəzərə alaraq, ARMB 2024-cü ilin fevral ayında uçot dərəcəsini əlavə 25 baza punktu azaldaraq 7.75 faizə endirdi.

**Daxili tələb əhəmiyyətli dərəcədə qalıb.** Ev təsərrüfatlarına verilən kreditlər 2022-ci ildəki 30 faizlik artımdan əlavə, 2023-cü ilin yanvar-sentyabr ayları arasında əvvəlki illə müqayisədə 25.1 faiz artıb. Nisbətən yüksək daxili tələb fonunda, 2023-cü ilin ortalarında hökumət dövlət sektorunda əməkhaqlarını artırmaq, dövlət investisiyalarını artırmaq və ölkənin müdafiə qabiliyyətini gücləndirmək üçün büdcə xərclərinin artırılmasını təsdiqləyib. Genişmiqyaslı yenidənqurma ehtiyacları nəzərə alınaraq, hökumət xərclərinin və dövlət investisiya tələbatının yüksək səviyyədə qalacağı gözlənilir ki, bu da xarici investisiyaların cəlb edilməsinə daha çox önəm verəcəkdir.

**İqtisadiyyat hələ də neft və qaz sektorundan yüksək dərəcədə asılı olaraq qalır, bu sektor ÜDM-in 40 faizindən çoxunu təşkil edir və ölkənin ixracatında payı 90 faizdən yuxarıdır.** Güclü dövlət investisiyaları qarşıdakı dövrdə daxili tələbi artıracaqdır. Lakin iqtisadiyyatın şaxələndirilməsində irəliləyişin ləng olması və dəyişkən neft qiymətlərinə həssaslıq ölkənin uzunmüddətli artım potensialını və gəlir fərqinin azalmasını məhdudlaşdırır.

# 2. İqtisadi kontekst

## 2.2 Keçidlə bağlı əsas çətinliklər (I/II)

### Rəqabətə davamlı (4.29)

- **Azərbaycanın iqtisadiyyatı dövlətə məxsus müəssisələrin (DMM) əhəmiyyətli iştirakı və güclü siyasi əlaqələri olan bir neçə böyük konqlomerat ilə xarakterizə olunur.** DMM-lərə rəsmi olaraq inhisarçı səlahiyyətlər verilməsə də, bir çoxu bazarda dominant mövqeyə malikdir. Bu, kommunal xidmətlər də daxil olmaqla əsas sektorlar üzrə qiymətlərə dövlət tərəfindən təsir edilməsinə gətirib çıxarır.
- **Neftin hakim olduğu iqtisadiyyatdan şaxələndirilmiş iqtisadiyyata keçid** əsas çağırış olaraq qalır, **qeyri-neft/qaz sektoruna aid özəl şirkətlər zəif rəqabət qabiliyyəti** və maliyyə vəsaitlərinə çıxışın məhdudluğu ilə səciyyələnir.
- Səlahiyyətli orqanlar DMM-lərin idarə edilməsinin gücləndirilməsinə ehtiyac olduğunu qəbul etsələr də, **islahatların həyata keçirilməsi hələ də ləng irəliləyir**.

**Azərbaycan KKQ İcmalı 2022**




Mənbə: AYİB

### Yaxşı idarə olunan (5.66)

- **Korporativ idarəçilik standartları** hələ də regional standartlardan geri qalır. Bu, DMM islahatlarının ləng irəliləməsi, zəif institusional potensial və dövlət qurumlarının kifayət qədər kadr təminatının olmaması ilə bağlıdır.
- **Geosiyasi hadisələr və neft-qaz sektorundan asılılıq idarəçilik islahatı proqramını daha da çətinləşdirir.** Siyasi iradə neft gəlirlərindən asılı olaraq dəyişkən ola bilər. Qanunun aliliyi və korrupsiya qavrayışı ilə bağlı göstəricilər isə 2018-2022-ci illər arasında əhəmiyyətli dərəcədə yaxşılaşmayıb.[1]
- **Məhkəmə-hüquq islahatı üçün parçalanmış tədbirlər əvəzinə, kompleks yanaşma tələb olunur.** Bu zəifliklər, eləcə də iri DMM-lərin iştirakı və yüksək gömrük tarifləri investisiya mühitinə təsir edir və investor bazasına mənfi təsir göstərir.
- **2020-ci ilin avqustunda Azərbaycan İnvestisiya Holdinqinin (AİH) və 2025-ci ilin yanvarında AZCON-nun yaradılması DMM-lərin korporativ idarəçiliyini gücləndirmək üçün böyük bir imkan təqdim edir.** AİH səhmdar kimi çıxış edən hökumətin adından təbii ehtiyatlar, nəqliyyat, kommunal xidmətlər və maliyyə sektorlarını əhatə edən 19 əsas DMM-dən 11-ni idarə edir. Lakin DMM fəaliyyətlərində siyasi müdaxiləni və təsiri azaltmaq üçün əlavə islahatlar tələb olunur.

**Azərbaycanda korporativ idarəçiliyin qiymətləndirilməsi**




Mənbə: AYİB

### Yaşıl (5.08)

- **Son 30 ildə iqtisadi artıma əsasən mədən yanacaqlarının hasilatı təkan verib**, neft və təbii qaz Azərbaycanın ixrac gəlirlərinin təxminən 96.9 faizini təşkil edib.
- Siyasi, coğrafi və sosial amillərin birləşməsi səbəbindən, **Azərbaycan iqlim dəyişikliyinə yüksək dərəcədə həssasdır.** Temperaturun qlobal orta göstəricidən daha sürətli artacağı və sel, quraqlıq və istilik stresi kimi ekstremal hava hadisələrinin tezliyinin artacağı proqnozlaşdırılır ki, bu da insan sağlamlığına, dolanışıq vasitələrinə və ekosistemlərə təsir göstərəcəkdir.
- **Ümumi enerji təchizatında (ÜET) bərpa olunan enerji mənbələrinin payı 1990-cı illərdən bəri sabit qalıb, lakin aşağı səviyyədədir.** ÜET əsasən təbii qazdan (2020-ci ildə 70.5 faiz) və neftdən (2020-ci ildə 28.2 faiz) asılıdır. Əhəmiyyətli bir məqam odur ki, ölkədə daş kömür istifadə edilmir.
- **Bərpa olunan enerji və enerji səmərəliliyinə maraq** yalnız son zamanlarda artmağa başlayıb. Hökumət elektrik enerjisi istehsalında bərpa olunan enerjinin enerji mənbələrini şaxələndirməyə və iqlim siyasəti məqsədlərinə nail olmağa kömək edə biləcəyini qəbul edir.
- **Ölkə mükəmməl günəş və külək resurslarına, eləcə də biokütlə, geotermal enerji və hidroenerji üçün əhəmiyyətli perspektivlərə malikdir.** Hökumət 2030-cu ilə qədər elektrik enerjisi istehsal gücünün 30 faizini bərpa olunan enerji mənbələri hesabına təmin etməyi, yəni mövcud göstəricini təxminən iki dəfə artırmağı hədəfləyir.

**Ümumi enerji təchizatı, mənbə üzrə, 2020**




Mənbə: BEA

1. Bax, məsələn: "Transparency International" təşkilatının Korrupsiya Qavrama İndeksi https://www.transparency.org/en/cpi/2022 və Dünya Bankının Qlobal İdarəçilik Göstəriciləri https://info.worldbank.org/governance/wgi/

# 2. İqtisadi kontekst

## 2.2 Keçidlə bağlı əsas çətinliklər (II/II)

European Bank
for Reconstruction and Development

İnklüziv (4.77)

- **Məşğulluq qeyri-bərabər paylanmışdır və aşağı məhsuldarlığa malik sektorlarda,** xüsusən də kənd təsərrüfatında **yüksək cəmləşmə müşahidə olunur.** Mədənçıxarma sektoru (**o cümlədən neft və qaz hasilatı sənayesi**) 2022-ci ildə məşğulluqda ən kiçik paya malik olsa da, əlavə dəyər üzrə ən böyük paya sahib olmuşdur.
- Son illərdə Azərbaycan İnsan Kapitalı İndeksində irəliləyiş əldə etsə də, **bacarıqların inkişafı** Avropa və Mərkəzi Asiya səviyyələrinə yaxınlaşmaq baxımından **əsas çətinlik olaraq qalır.**
- **Bacarıqların çatışmazlığı bacarıqların zəif inkişafını daha da kəskinləşdirir,** əmək bazarında ixtisas uyğunsuzluğu və əhalinin aşağı rəqəmsal bacarıq səviyyəsi müşahidə olunur.
- **Təhsil və təlim müəssisələrinin keyfiyyəti əmək bazarı ilə bağlı əlavə problemlər yaradıb.** Aztəminatlı ailələrdən olan şagirdlər PISA testlərində yüksək gəlirli qruplara mənsub olanlara nisbətən daha aşağı nəticələr göstərirlər.
- **Əmək qanunvericiliyinə edilmiş dəyişikliklər bərabər məşğulluğa mane olan hüquqi əngəlləri yumşaldıb.** Nəticədə, Azərbaycanın Dünya Bankının "Qadınlar, biznes və qanun" göstəricisi üzrə balı 78.8-dən 85-ə yüksəlib.

**Aşağı məhsuldarlıqla səciyyələnən sektorlarda cəmləşmiş məşğulluq**




Mənbə: AYİB

İnteqrasiyalı (5.49)

- **Xarici ticarət iqtisadi buraxılışın təxminən 2/3-ni təşkil edir, lakin bu göstərici AYİB-in orta qiymətindən geri qalır.** Enerji ixracatı ölkənin ixracatının təxminən 90 faizini təşkil edir, qeyri-neft ixracatı isə ÜDM-in cəmi 5 faizini təşkil edir və əsasən aşağı dəyərli məhsullardan ibarətdir.
- Ölkədə yüksək dövlət xərcləri sayəsində nisbətən yüksək infrastruktur keyfiyyəti mövcuddur, lakin **daxili əlaqəlilik, xüsusən də Bakıdan kənarda, nisbətən zəif inkişaf edib ki, bu da ticarət logistikası sahəsində daha zəif nəticələrə səbəb olur.**
- Genişzolaqlı internetin əhatə dairəsi və istifadəsi ümumən yüksək olsa da, **ev internetinin sürəti Avropa ölkələri ilə müqayisədə aşağıdır** və paytaxt ilə digər şəhər və kənd əraziləri arasında **rəqəmsal fərq hələ də mövcuddur.**
- Son illərdə **Orta Dəhliz** müxtəlif geosiyasi proseslər fonunda alternativ nəqliyyat marşrutu kimi əhəmiyyətli dərəcədə aktuallaşıb, bu da Rusiyanın Ukraynaya müdaxiləsi ilə daha da güclənib. Bunun potensial faydaları geniş miqyasda ola bilsə də, indiyədək özəl sektorun investisiya marağı hələ ki çox məhduddur.

**Ümumi daxili nəqliyyat infrastrukturu investisiyası (ÜDM-in %-i)**




Mənbə: İƏİT. Bəzi illərdə müəyyən müqayisə göstəricilərinin buraxılması məlumatların müyəssərliyi ilə bağlı problemlərdən qaynaqlanır.

Dayanıqlı (3.51)

- **Azərbaycanın maliyyə sistemində bank sektoru üstünlük təşkil edir və dövlətə məxsus banklar ümumi aktivlərin üçdə birini əlində saxlayır.** Bank olmayan maliyyə institutları hələ də zəif inkişaf edib və cəmi bir neçə həyat sığortası xidməti mövcuddur. İnstitusional investor aktivləri 2022-ci ildə ÜDM-in yalnız 1.2 faizini təşkil edib.
- **Azərbaycanın maliyyə bazarları** hüquqi və tənzimləyici çərçivə və yerli institusional investor bazasının zəif olması, habelə zəif inkişaf etmiş pul bazarları səbəbindən hələ də **ilkin inkişaf mərhələsindədir.**
- **Enerji sektorunun əsasən dövlət monopoliyasında qalmasına** və müstəqil enerji tənzimləyicisinin olmamasına baxmayaraq, yeni Rəqabət Məcəlləsi, "Elektroenergetika haqqında" qanun və "Dövlət satınalmaları haqqında" qanun əsasında enerji sektorunun rəqabətliliyini artırmaq üçün birgə səylər göstərilir.
- Elektrik bazarında islahatların gedişi elektrik **enerjisi istehsalının dəyər zəncirinin hüquqi olaraq ayrılmasını** tələb edir. Lakin tənzimləmənin ləğvinin ləng və qeyri-kafi həyata keçirilməsi investor marağını məhdudlaşdırıb. Hidrogen və yaşıl ammonyak da daxil olmaqla, yeni yaşıl enerji layihələrinin həyata keçirilməsi məqsədinin qarşıya qoyulması bərpa olunan enerji sahəsinə əlavə investisiyalara gətirib çıxara bilər.

**Bank sektoru və institusional investor aktivləri (ÜDM-in %-i)**




Mənbə: BVF Maliyyə Sağlamlığı Göstəriciləri (FSİ), İƏİT, S&P Capital, Dünya Bankı.

# 3. Hökumətin prioritetləri və maraqlı tərəflərin cəlb edilməsi

European Bank
for Reconstruction and Development

## 3.1 Hökumətin islahat prioritetləri

“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” çərçivəsində, “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” özəl sektora söykənən artım modelinə keçidi asanlaşdırmaq və insan kapitalının inkişafını sürətləndirmək üçün hərtərəfli bir plan təqdim edir və qeyri-enerji sektorlarında davamlı 5% artıma nail olmağı hədəfləyir. Bu strategiya çərçivəsində bir sıra əsas prioritetlər müəyyən edilmişdir. Bura aşağıdakılar daxildir:

- **Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə strateji çərçivə:** iqtisadi şaxələndirmə və qeyri-neft ixracının artırılması; özəl sektorun gücləndirilməsi; qanunun aliliyinin yaxşılaşdırılması; DMM-lərin səmərəliliyinin, idarə edilməsinin və şəffaflığının yaxşılaşdırılması; maliyyə sektorunun iqtisadiyyatda rolunun gücləndirilməsi; dövlət satınalmalarında şəffaflığın artırılması; rəqəmsallaşmanın təşviq edilməsi; makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsi və qeyri-neft/qaz sektoruna birbaşa xarici investisiyaların (BXİ) təşviq edilməsi.

- **Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət:** əməkhaqlarının artırılması; özəl sektorda iş yerlərinin artırılması və ədalətli sosial müdafiə sisteminin şəbəkəsinin qurulması; qadınların iqtisadi imkanlara çıxışının yaxşılaşdırılması və şəhərlə kənd arasında yaşayış standartlarındakı fərqlərin aradan qaldırılması.

- **Təmiz ətraf mühit və “yaşıl artım ölkəsi”:** təbii resurslardan daha dayanıqlı istifadə və biomüxtəlifliyin qorunmasının təşviq edilməsi; bitki örtüyünün artırılması və istifadəyə yararsız torpaqların azaldılması; su ilə təminatın yaxşılaşdırılması, tullantıların təkrar emalı və təbiət ərazilərinin mühafizəsi; iqlim tədbirlərini dəstəkləmək üçün bərpa olunan enerji mənbələrinin genişləndirilməsi və yaşıl texnologiyaların tətbiqi.

- **Gücləndirilmiş insan kapitalı və innovasiya:** peşə təhsili və ali təhsilin keyfiyyətinin yaxşılaşdırılması; rəqəmsal bacarıqların inkişaf etdirilməsi; səhiyyə xidmətlərinin yaxşılaşdırılması; tədqiqatların genişləndirilməsi və təhsilə çıxışın artırılması; idxalın əvəz olunması və istehsalın lokallaşdırılması məqsədilə yerli istehsal potensialının gücləndirilməsi.

## 3.2 AYİB-in səlahiyyətli orqanlarla əsasən razılaşdırılmış islahat sahələri

- Xüsusilə kiçik və orta müəssisələr (KOM) üçün maliyyə vəsaitlərinə çıxışı yaxşılaşdırmaq və bank sektorunun dayanıqlığını artırmaq üçün maliyyə vasitəçiliyini gücləndirmək
- Bərpa olunan enerji ixracını gücləndirmək məqsədilə, bərpa olunan enerji istehsalı gücünü artırmaq və enerji səmərəliliyini yüksəltmək,
- Orta Dəhliz boyunca nəqliyyat əlaqələrinin yaxşılaşdırılmasını və Yaşıl Enerji Dəhlizlərinin inkişafını dəstəkləməklə daha böyük regional əlaqəliliyi təşviq etmək.
- İdarəetmə, şəffaflıq və innovasiyanı artırmaq üçün rəqəmsallaşmanı sürətləndirmək.
- Yaşıl Şəhərlər Proqramı və digər vasitələrlə dayanıqlı şəhər infrastrukturunun inkişafını davam etdirmək.

## 3.3 Vətəndaş cəmiyyəti üzvlərinin AYİB-ə əsas mesajları

- VCT-lər təklif olunan prioritetləri təsdiqləyərək, Azərbaycanın biznes mühitinin yaxşılaşdırılmasına ehtiyac olduğunu və özəl sektorun potensialını artırmaq, qanunvericilik islahatlarını və şəffaflığı irəlilətmək, iqtisadi inklüzivliyi və rəqəmsallaşmanı təşviq etmək, həmçinin maliyyə alətlərinə çıxışı yaxşılaşdırmaqla ümumi iqtisadiyyatın gücləndirilməsinin mümkün olduğunu qeyd etdilər.
- VCT-lər Bankı (i) bərpa olunan enerji mənbələrinin şaxələndirilməsinə investisiya etməklə, (ii) maliyyəyə çıxışı yaxşılaşdırmaqla və (iii) ölkənin yaşıl sektorunun rəqabət qabiliyyətini və şəffaflığını dəstəkləməklə iqtisadiyyatı “yaşıllaşdırmağa” və dayanıqlı inkişafı gücləndirməyə çağırdılar.
- VCT-lər, Bankı ümumi dövlət-özəl tərəfdaşlığı təşviq etməyə, siyasi qərar qəbulunda iştirakçılığı asanlaşdırmağa və məlumatlara çıxışın genişləndirilməsini dəstəkləməyə çağırdılar. VCT-lər potensialın artırılması sahəsində köməklik göstərilməsini xahiş edərək, bunun vətəndaş iştirakını və hesabatlılığı gücləndirməyə kömək edəcəyini bildiriblər.

# 4. Azərbaycan üzrə Ölkə Strategiyasının prioritetlərinin müəyyənləşdirilməsi

European Bank
for Reconstruction and Development

| Nəyi dəyişmək lazımdır? (Ölkə diaqnostikası) | Bunu dəyişmək mümkündürmü? (Siyasi iqtisadiyyat) | Bank nə edə bilər? (İnstitusional imkanlar) | Strateji Prioritetlər (2025-2030) | 2029-cu ildə nələri görmək istəyirik |
|---|---|---|---|---|
| • DMM-lər və bir sıra iri konqlomeratlar iqtisadiyyatda əhəmiyyətli təsirə malikdir.<br>• Zəif iqtisadi diversifikasiya; qeyri-neft ixracatı 2022-ci ildə iqtisadi buraxılışın 8%-ni təşkil edib.<br>• Əsasən Bakının xaricində, zəif inkişaf etmiş logistika infrastrukturu iqtisadi artımı və dəyər zəncirinin inteqrasiyasını məhdudlaşdırır.<br>• Aşağı kreditləşmə səviyyəsi və şaxələnmənin olmaması maliyyə dayanıqlığını məhdudlaşdırır.<br>• Maliyyə bazarları erkən inkişaf mərhələsindədir.<br>• Məşğulluğun üçdə biri aşağı məhsuldarlığa malik kənd təsərrüfatının payına düşür; iqtisadiyyat bacarıq çatışmazlığı, şəhər/kənd bərabərsizlikləri və inklüzivlik fərqləri ilə xarakterizə olunur.<br>• Korporativ idarəçilik hələ də zəifdir, dövlət qurumlarında qərar qəbul etmək qabiliyyəti və müstəqillik məhduddur.<br>• Davam edən tənzimləyici və inzibati çətinliklər biznesin aparılmasını çətinləşdirir. | • Hökumətin DMM-lərin idarə olunmasını gücləndirmək səyləri, o cümlədən bu məqsədlə dövlət investisiya holdiqlərinin yaradılması<br>• Orta Dəhlizin inkişafına artan maraq və potensial layihələr qeyri-neft sektorunda fəaliyyət göstərən şirkətlər üçün bazar əlaqələrini yaxşılaşdıra bilər<br>• Son dövrlərdə kapital bazarları sahəsində həyata keçirilən islahatlar, təkmilləşdirilmiş bazar infrastrukturu və stimullaşdırılmış dəstək mexanizmləri sayəsində emitentlərin iştirakı/maliyyələşdirilməsi artıb<br>• Peşə təhsilinə diqqət artırılıb, 2030-cu ilə qədər 6 yeni mərkəzin açılması planlaşdırılır<br>• İqtisadiyyatı liberallaşdırmaq və rəqabəti artırmaq üçün yüksək səviyyəli fəaliyyət planları vasitəsilə əlavə addımlar atılması planlaşdırılır | • Korporativlər və KOM-ların böyüməsinə kömək edəcək effektiv alətlər, o cümlədən kredit xətləri və KBM vasitəsilə qeyri-maliyyə alətləri.<br>• AYİB ticarət və əlaqəliliyi artırmaq üçün nəqliyyat və logistika infrastrukturunu dəstəkləyə bilər.<br>• Maliyyə məhsullarının və kapital/pul bazarlarının genişləndirilməsi sahəsində ixtisaslaşma.<br>• Xidmətlərlə zəif təmin olunan qruplara maliyyə/məsləhət dəstəyi, məsələn, WiB (Qadınlar Biznesdə).<br>• AYİB bacarıqların artırılması vasitələrini və daha geniş maliyyə inklüzivliyini təşviq edə bilər.<br>• DMM-lərə iqtisadi idarəetmə, kommersiyalaşma və korporativ idarəetmə baxımından dəstəyin göstərilməsi üzrə güclü təcrübə.<br>• İnstitusional və biznes mühiti islahatlarını dəstəkləmək üçün məqsədli və əməliyyatlarla əlaqələndirilmiş siyasətlər üzrə iş.<br>• AYİB özəl və dövlət sektorlarında rəqəmsal keçidi dəstəkləyə bilər. | **Daha güclü, rəqabətqabiliyyətli və inklüziv özəl sektor və təkmilləşdirilmiş idarəçilik vasitəsilə daha böyük iqtisadi şaxələndirməni təşviq etmək** | • Daha rəqabətqabiliyyətli, şaxələnmiş və genişlənən özəl sektor<br>• Maliyyə və bacarıqlara daha geniş çıxış imkanı<br>• Qurumların və iqtisadi idarəetmənin keyfiyyətinin yüksəlməsi |
| • Neft-qaz sektorunun ÜDM-ə geniş miqyasda töhfələri və enerji ilə yüksək özünütəminetmə səviyyələri yaşıl keçidə mane olur.<br>• Ümumi enerji təchizatında (ÜET) bərpa olunan enerji mənbələrinin payı 1990-cı illərdən bəri sabit qalıb, lakin aşağı səviyyədədir.<br>• Ölkə ciddi su stresi ilə üzləşir və iqlim dəyişikliyinə yüksək dərəcədə həssasdır, sənaye çirklənməsi səviyyələri yüksəkdir.<br>• Daxili əlaqəliliyə transsərhəd əlaqəliliklə müqayisədə daha az diqqət yetirilib, ikinci dərəcəli avtomobil yolu və dəmir yolu şəbəkələri üçün texniki qulluq və müasirləşdirməyə ehtiyac duyulur.<br>• Bəzi irəliləyişlər olsa da, genişzolaqlı internet sürəti hələ də aşağıdır və əsasən sabit infrastrukturun olmaması səbəbindən rəqəmsal fərqlər mövcudluğunu qoruyur. | • İstifadə edilməmiş, əhəmiyyətli miqyasda daxili bərpa olunan enerji potensialı və ixracın karbohidrogenlərə dayanıqlı alternativ olması barədə məlumatlılıq artır.<br>• Yaşıl məqsədlər əsas milli siyasət sənədlərinə inteqrasiya olunub və yaşıl gündəlik, o cümlədən COP29-a hazırlıq çərçivəsində, beynəlxalq əməkdaşlıq artıb<br>• Hökumətin ölkəni əsas tranzit və nəqliyyat qovşağı kimi mövqelendirmək üçün infrastrukturun inkişafına davamlı səy göstərməsi.<br>• Coğrafi məsafə maneələrini aradan qaldırmaq və ixracı genişləndirmək üçün rəqəmsallaşdırma tədbirlərinə (məsələn, e-ticarət platformaları və transsərhəd rəqəmsal ticarət təşəbbüslərinə) artan maraq.<br>• 2024-cü ilin sonuna qədər hər bir evdə fiber optik kabelin olması planları. | • Adekvat tənzimləyici/siyasət çərçivələri hazırlamaqla bərpa olunan enerji layihələrinin maliyyələşdirilməsini həyata keçirmək.<br>• AYİB energetika sektorunda əlavə idarəçilik islahatlarına dəstək göstərə bilər<br>• İqlimə davamlılıq və dekarbonizasiya sahələrində dəstəyin göstərilməsi və karbonun azaldılması yanaşmalarının hazırlanması sahəsində güclü təcrübə.<br>• AYİB yaşıl investisiyaların həyata keçirilməsini asanlaşdıra və enerji və resurs səmərəliliyini gücləndirə bilər.<br>• Xüsusi YİK çərçivələri (məsələn, Yaşıl Şəhərlər) vasitəsilə dayanıqlı infrastrukturun qurulmasında nəzərəçarpan təcrübə.<br>• Rəqəmsal keçidə, o cümlədən infrastruktur və rəqəmsal bacarıqlara hərtərəfli yanaşma | **Yaşıl İqtisadiyyata Keçidi sürətləndirmək və regional əlaqəliliyi yaxşılaşdırmaq.** | • Bərpa olunan enerji istehsalı gücünün artması və yaşıl enerjiyə keçidə dəstək<br>• Enerji və resurs səmərəliliyinin və iqlimə davamlılığın artması<br>• Nəqliyyat şəbəkələrinin, rəqəmsal və kommunal infrastrukturun keyfiyyət və dayanıqlılığının yaxşılaşması |

# 5. Fəaliyyətlər və Nəticələr Çərçivəsi (1/2)

European Bank
for Reconstruction and Development

**Prioritet 1: Daha güclü, daha rəqabətqabiliyyətli və inklüziv özəl sektor və təkmilləşdirilmiş idarəçilik vasitəsilə daha iqtisadi şaxələndirmənin artmasını təşviq etmək**

| Əsas məqsədlər | Fəaliyyətlər (aralıq nəticələr) | Göstəricilərin izlənməsi (yekun nəticələr) |
|---|---|---|
| **Daha rəqabətqabiliyyətli, şaxələnmiş və genişlənən özəl sektor** | • Qeyri-neft/qaz sektorunda, o cümlədən kənd təsərrüfatı, TMT/rəqəmsal xidmətlər, istehsalat və xidmətlər və infrastruktur sahələrində korporativlərə və KOM-lara maliyyə və texniki yardım göstərməklə, ixracın artırılmasına və idxalın əvəz edilməsinə xüsusi diqqət yetirməklə, iqtisadiyyatın daha çox şaxələndirilməsini və özəl sektorun inkişafını dəstəkləməyə davam etmək<br>• Perspektivli KOM-ların genişlənməsinə, innovasiyalar etməsinə və məhsuldarlığı artırmasına kömək etmək üçün KBM proqramının yerli məsləhət xidməti, beynəlxalq məsləhət, “Star Venture” və “WiB” (Qadınlar Biznesdə) proqramları vasitəsilə xüsusi maliyyə və məsləhət xidməti təqdim etmək<br>• Mövcud ticarət marşrutlarını gücləndirmək və Orta Dəhliz kimi yeni mexanizmlər yaratmaq məqsədilə, əlavə ticarət, nəqliyyat və logistika infrastrukturunu, o cümlədən intermodal həlləri dəstəkləmək və müvafiq ticarət maliyyəsi və rəqəmsal ticarəti genişləndirmək.<br>• Regional dəyər zəncirlərini daha da inkişaf etdirmək, müasir rəqəmsal infrastruktur və xidmətlərin yayılmasını artırmaq məqsədilə, daxil olan birbaşa xarici investisiyaları, əsas investorları və özəl kapitalı dəstəkləməyə səy göstərmək, investisiyaların cəlb edilməsi üçün müasir investisiya təşviqi vasitələrindən istifadə etmək | • İxrac və/yaxud məhsuldarlığın artdığını bildirən müştərilərin sayı.<br>• Bank tərəfindən dəstəklənən TAP əməliyyatlarının sayı/həcmi. |
| **Maliyyə və bacarıqlara daha geniş çıxış imkanı** | • Ayrılmış kredit xətlərini, risklərin bölüşülməsi mexanizmlərindən istifadənin artmasını və yerli valyuta ilə kreditləşməni dəstəkləmək üçün TMİ-lərin şəbəkəsini genişləndirməklə, zərurətə uyğun olaraq donor vəsaitlərindən istifadə etməklə və bank sektorunun dayanıqlığını gücləndirmək və böyüməni dəstəkləmək üçün texniki yardım göstərməklə özəl sektorun maliyyə çıxışını daha da genişləndirmək.<br>• Digər vasitələrlə yanaşı, pul siyasəti çərçivəsini təkmilləşdirməklə, yeni və/və ya innovativ maliyyə məhsullarını (məsələn, yaşıl istiqrazlar, dayanıqlılıq istiqrazları) tətbiq etməklə, habelə tənzimləyici çərçivə və institusional struktur ilə bağlı məqsədyönlü siyasət tədbirləri təmin etməklə pul-kapital bazarlarının inkişafını dəstəkləməyə səy göstərmək.<br>• Xidmətlərlə zəif təmin olunan qrupların, məsələn, qadınlar tərəfindən idarə olunan KOM-ların maliyyəyə çıxışını artırmağa kömək etmək, bank olmayan maliyyə sektoru vasitəsilə mikromaliyyə üçün seçimləri nəzərdən keçirmək və inklüziv maliyyə sistemləri və lizinq və faktorinq kimi maliyyə məhsullarının tətbiqi üzrə siyasət dialoqunu davam etdirmək.<br>• Əmək bazarının bütün seqmentləri (məsələn, qadınlar, gənclər, yaşlılar) üçün bazar tələblərinə uyğun peşə hazırlığı və bacarıqların inkişafı imkanlarını (o cümlədən yaşıl və rəqəmsal bacarıqlar) dəstəkləməklə insan kapitalının inkişafını gücləndirmək. | • TMİ-lər tərəfindən KOM-lar üçün verilmiş kreditlərin sayı/həcmi<br>• Pul bazarı fəaliyyətinin artması<br>• Maliyyəyə çıxış əldə edən, qadınlar tərəfindən idarə olunan bizneslərin sayı<br>• Təlim nəticəsində yeni bacarıqlar əldə etmiş və ya bacarıqları yaxşılaşmış (o cümlədən yaşıl, rəqəmsal) insanların sayı (q/k) |
| **Qurumların və iqtisadi idarəetmənin keyfiyyətinin yüksəlməsi** | • Tərəfdaşları hökumət qurumları, məsələn, dövlət investisiya holdinqləri ilə əməkdaşlıqda, seçilmiş DMM-lərdə korporativ idarəetmənin təkmilləşdirilməsi, kommersiyalaşma, potensialın artırılması və strateji işçi qüvvəsinin idarə olunmasını, o cümlədən zərurətə uyğun olaraq tam və ya qismən özəlləşdirmə addımlarını dəstəkləməklə DMM islahatlarını sürətləndirməyə kömək etmək.<br>• Özəl və dövlət sektorlarında korporativ idarəetmənin təkmilləşdirilməsini dəstəkləmək.<br>• Əsas infrastruktur xidmətləri üçün özəl maliyyələşdirmə və icra həllərini (məsələn, dövlət-özəl tərəfdaşlığı) dəstəkləməyə davam etmək.<br>• Digər vasitələrlə yanaşı, şəffaflığı artırmaq üçün tənzimləmə ilə bağlı islahatlar və hökumət xidmətlərinin rəqəmsallaşdırılması vasitəsilə biznes mühitinin daha da yaxşılaşdırılmasına dəstək göstərmək. | • Korporativ idarəçiliyi və/və ya əməliyyat səmərəliliyini yaxşılaşdıran müştərilərin sayı<br>• Biznes mühitində təkmilləşdirilmiş (hüquqi/ institusional/ tənzimləyici) elementlərin sayı |

Rəqabətə davamlı | İnklüziv | Yaxşı idarə olunan

# 5. Fəaliyyətlər və Nəticələr Çərçivəsi (2/2)

European Bank
for Reconstruction and Development

## Prioritet 2: Yaşıl İqtisadiyyata Keçidi sürətləndirmək və regional əlaqəliliyi yaxşılaşdırmaq

| Əsas məqsədlər | Fəaliyyətlər | Göstəricilərin izlənməsi (yekun nəticələr) |
|---|---|---|
| Bərpa olunan enerji istehsalı gücünün artması və yaşıl enerjiyə keçidə dəstək | • Ölkədaxili bərpa olunan enerji mənbələrinin, xüsusilə günəş və külək enerjisinin inkişafını dəstəkləmək üçün birbaşa maliyyələşmə təmin etmək, eyni zamanda tənzimləyici çərçivəni gücləndirmək üçün siyasət və məsləhət dəstəyi göstərmək və planlaşdırıcıların və təchizatçıların müxtəlifliyini artırmağa yönələn tədbirləri təşviq etmək<br>• Bərpa olunan enerjini daha yaxşı qəbul etməsi üçün şəbəkənin gücünü, sabitliyini və dayanıqlığını artırmağa kömək etmək və yaşıl hidrogen kimi yeni texnologiyaların yaradılması imkanlarını araşdırmaq<br>• Energetika sektorunda əlavə islahatları dəstəkləmək (məsələn, istehsal və paylanmanın ayrılması) və uzunmüddətli perspektivdə bazarın liberallaşdırılması, o cümlədən müstəqil enerji tənzimləyicisinin yaradılmasını təşviq etmək<br>• Bərpa olunan enerji ixracını, müvafiq saxlama qabiliyyətini və elektrik əlaqələrini asanlaşdırmaq üçün, o cümlədən Yaşıl Enerji Dəhlizlərinin inkişafına potensial dəstək üçün imkanlar axtarmaq.<br>• Energetika sektorunda aşağı karbonlu və iqlimə davamlı inkişaf yanaşmalarının hazırlanmasına dəstək üçün imkanları araşdırmaq. | • Bərpa olunan enerji mənbələri üzrə qoyuluş gücü (MVt)<br>• Bərpa olunan enerji və bazar strukturunu təkmilləşdirmək üçün hüquqi/institusional/tənzimləyici addımlar |
| Enerji və resurs səmərəliliyinin və iqlimə davamlılığın artması | • Maliyyələşdirmə şərtləri imkan verdikdə, yaşıl kreditləşmə və vasitəçiliyə əsaslanan yaşıl maliyyələşdirmə (o cümlədən müxtəlif fondlar vasitəsilə) üzrə pilot layihələri həyata keçirmək üçün imkanları araşdırmaq.<br>• Müştərilər və tənzimləyicilər arasında iqlim risklərinin idarə edilməsini təşviq etmək və AYİB-nin Paris Sazişinə uyğunlaşma metodologiyası çərçivəsində tərəfdaşların keçidin planlaşdırılması yanaşmasını həyata keçirmələrinə dəstək vermək.<br>• Enerji və resurs səmərəliliyini artırmaq, iqlimə davamlılığı gücləndirmək və istixana qazı emissiyalarını azaltmaq məqsədilə korporativ sektorda digər yaşıl investisiyaları və müvafiq məsləhət xidmətlərini (o cümlədən mümkün olduqda iqlim aspektlərini nəzərə alan korporativ idarəçilik) dəstəkləmək<br>• Daha yüksək iqlimə davamlılığı və uyğunlaşmanı, o cümlədən su qıtlığı problemlərinin həlli və material dəyər zəncirləri boyunca dayanıqlıq standartlarının qəbulunu təşviq etmək üçün imkanları araşdırmaq və qadınların iqlim fəaliyyətində iştirakının artırılmasına dəstək vermək | • Azaldılmış cəmi CO2 ekvivalenti (ton/il) |
| Nəqliyyat şəbəkələrinin, rəqəmsal və kommunal infrastrukturun keyfiyyət və dayanıqlığının yaxşılaşması | • Digər vasitələrlə yanaşı, Yaşıl Şəhərlər proqramı vasitəsilə, əhatə olunan sektorların və coğrafi ərazilərin genişləndirilməsinə xüsusi diqqət yetirməklə, dayanıqlı və inklüziv kommunal və ətraf mühit infrastrukturuna investisiyaları təşviq etmək.<br>• Mümkün hallarda özəl sektorun da fəal iştirakı ilə, dayanıqlı avtomobil yolları, dəmir yolları, dəniz nəqliyyatı, limanlar və şəhər nəqliyyatı sektorlarında yaşıl, inklüziv və inteqrasiya olunmuş nəqliyyat investisiyalarının maliyyələşdirilməsi, eləcə də müvafiq prioritet siyasət islahatları və potensialın artırılması vasitəsilə, xüsusilə Orta Dəhliz boyunca, daxili və regional nəqliyyat əlaqələrinin gücləndirilməsinə dəstək vermək<br>• İnfrastrukturun əməliyyat səmərəliliyinin, dayanıqlığının və rəqəmsallaşdırılmasının gücləndirilməsinə dəstək vermək.<br>• Genişzolaqlı internetin əhatə dairəsini genişləndirərək xidmətlərlə əhatə olunmayan və ya zəif təmin olunan ərazilərə yayılmasına xüsusi diqqət yetirməklə, rəqəmsal infrastrukturun keyfiyyətini, dayanıqlılığını, təhlükəsizliyini və inklüzivliyini gücləndirmək. | • Bələdiyyə xidmətlərinə çıxışı yaxşılaşdırılmış fərdlərin sayı.<br>• Nəqliyyat infrastrukturunun istifadəsi və/yaxud tutumunda xalis artım.<br>• Rəqəmsal infrastruktur potensialında xalis artım. |

Yaşıl

İnteqrasiyalı

# 6. Beynəlxalq tərəfdaşların AYİB-in fəaliyyət sahələrində yaratdığı sinergiyanın sxemləşdirilməsi

European Bank
for Reconstruction and Development

## AYİB-in fəaliyyət sahələri

| Təqribi orta illik investisiyalar/ qrantlar (milyon avro, 2019-2023) | | Sektor: Sənaye, Kommersiya və Aqrobiznes – Aqrobiznes | İstehsal və xidmətlər | Əmlak və turizm | TMT | Təbii ehtiyatlar | Dayanıqlı infrastruktur – Enerji | İnfrastruktur | Mİ – Bankçılıq | Qeyri-bank Mİ-lər | Kəsişən sahələr: Strateji təşəbbüslər – Yaşıl iqtisadiyyat | İnklüzivlik və gender | Yerli valyuta və kapital bazarları | Kiçik sahibkarlıq |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| DB/BMK | 42 | | | | | | | € | € | | € | €P | | € |
| AsİB | 21 | €P | P | P | | | €P | €P | € | | €P | €P | P | € |
| Aİ | 21 | € | € | € | | | € | € | | | €P | €P | | |
| SECO | 18 | | | | | | | | | € | | | | € |
| EIB | 17 | | | | | | € | | € | | € | | | € |
| QDTİB | 11 | | | | | | € | | € | | | | | € |
| AYİB | 62 | €P | €P | | | | €P | €P | €P | | €P | €P | €P | € |

€ Əhəmiyyətli investisiya sahəsi

P Siyasətlər üzrə əhəmiyyətli əməkdaşlıq sahəsi.

● Əsasən özəl sektora köklənmək

○ Əsasən dövlət sektoruna köklənmək

Qeyd: BMİ-lərin fəaliyyətləri ictimaiyyətə açıq məlumatlar əsasında sxemləşdirilmişdir. Əhəmiyyətli BMI investisiyaları dedikdə, 2019-cu ildən bəri imzalanan investisiyaların 5%-ni aşan layihələr nəzərdə tutulur.

## Potensial əməkdaşlıq sahələri

### Yaşıl

- Enerji sektorunda islahat gündəliyi və bərpa olunan enerji çərçivəsinin inkişafı üzrə Aİ ilə əməkdaşlığı davam etdirmək.
- Yaşıl keçid, xüsusən bərpa olunan enerji layihələrində Dünya Bankı, BMK və AsİB ilə əməkdaşlıq etmək.
- Digər vasitələrlə yanaşı, "Yaşıl Şəhərlər" proqramı vasitəsilə, kommunal infrastruktur üzrə birgə maliyyələşdirmə imkanları axtarmaq.

### Rəqabətə davamlı

- Qeyri-neft ixrac sektorunu daha da inkişaf etdirmək, KOM-ları dəstəkləmək və biznes mühitini yaxşılaşdırmaq, həmçinin TMİ-lərin genişlənməsi üzrə əməkdaşlıq etmək üçün AsİB, Aİ, Dünya Bankı, BMK, EIB ilə potensial birgə investisiya imkanlarını müəyyən etmək

### İnteqrasiyalı

- Əlaqəliliyi artırmaq üçün Orta Dəhliz və rəqəmsal gündəlik üzrə əməkdaşlığa səy göstərmək.

### Yaxşı idarə olunan

- Ən böyük DMM-lərin kommersiyalaşdırılması və transformasiyası üzrə dövlət investsiya holdinqləri ilə işləmək üçün tərəfdaşlarla əlaqələndirmə aparmaq.

# 7. İcra ilə bağlı risklər və ətraf mühit və sosial sahəyə təsirlər

European Bank
for Reconstruction and Development

| Strategiyanın icrası üçün risklər | Ehtimal | Təsir |
| --- | --- | --- |
| • **Əmtəə qiymətlərinə həssaslıq:** əsas ixrac mallarının qiymətlərində azalmalar potensial mənfi makroiqtisadi təsirlərə (məsələn, resessiya) səbəb ola və özəl sektorun tələbatını zəiflədə bilər, qiymətlərin artımı isə islahatlar üçün stimulu azalda bilər. | Orta | Yüksək |
| • **Regional təhlükəsizlik vəziyyətinin pisləşməsi** investor inamını zəiflədə və biznes imkanlarını məhdudlaşdıra bilər. | Orta | Yüksək |
| • **Yerli banklardan** və genişmiqyaslı dövlət proqramlarından **güclü rəqabət** AYİB-in özəl sektora kredit vermə qabiliyyətini məhdudlaşdıra bilər. | Orta | Orta |
| • Rəqabətli şərtlərlə yerli valyutada **uzunmüddətli kommersiya maliyyələşməsinə qeyri-kafi çıxış imkanı.** | Orta | Orta |
| • DMM-lərin fəaliyyət səmərəliliyini artırmağa və özəl sektorun inkişafını təşviq etməyə **yönələn təşəbbüslərin effektivliyi** siyasi iradədən asılı olacaq və bu, rəqabət qabiliyyətinə potensial olaraq təsir göstərə bilər. | Orta | Yüksək |
| • **Donor vəsaitlərinin məhdud müyəssərliyi** Bankın özəl sektoru, məsələn, innovativ məsləhət proqramları və hibrid maliyyə alətləri vasitəsilə dəstəkləmək qabiliyyətini məhdudlaşdıra bilər. | Yüksək | Orta |

Yüksək   Orta   Aşağı

## Ətraf mühit və sosial sahəyə təsirlər

- **Sektor və layihə səviyyəsində ətraf mühitə və sosial sahəyə təsirlərin qiymətləndirilməsi və idarə edilməsi:** Layihələrin ƏMSS təsirlərinin və iqlim dəyişikliyinə qarşı həssaslığın qiymətləndirilməsini və azaldılmasını, habelə maraqlı tərəflərin konstruktiv iştirakını təmin etmək. Layihə sahələrinin ƏMSS risklərinin təhlili əsasında müəyyən edilməsini təmin etmək və mühafizə olunan ərazilərə müdaxilədən çəkinmək və həssas reseptorlara təsirləri minimallaşdırmaq üçün Hökuməti əsas sektorlar üçün ətraf mühitə və sosial sahəyə təsirlər üzrə strateji qiymətləndirmələr həyata keçirməyə təşviq etmək və dəstəkləmək.
- **Əmək və iş şərtləri:** Müştərilərin insan resursları siyasətlərinin və əmək təcrübələrinin AYİB PR2-yə uyğun olmasını təmin etmək, bütün layihə işçilərinin ədalətli rəftar, ayrı-seçkilik və qısnamadan azad mühit və bərabər imkanlarla təmin olunmasını təşviq etmək və sosial dialoqa əsaslanan sağlam işçi-rəhbərlik münasibətlərini stimullaşdırmaq. Müştərilərə, işçilərin məruz qala biləcəyi potensial mənfi təsirləri müəyyənləşdirmək, qiymətləndirmək və idarə etmək yolu ilə ədalətli keçid üçün öz potensiallarını gücləndirməkdə dəstək göstərmək. Bu əsas əmək risklərinin idarə olunmasında və AYİB PR2 tələblərinə uyğunluğun təmin edilməsində müştərilərə dəstək üçün TƏ vəsaitləri tələb olunacaq.
- **Resursların səmərəliliyi və çirklənmənin qarşısının alınması və nəzarət edilməsi:** Bərpa olunan enerji, enerji səmərəliliyi, dairəvi iqtisadiyyat və tullantıların idarə edilməsi layihələrinin, o cümlədən mənbədə ayırma və təkrar emalı təşviq etmək üçün infrastruktur və sistemlərin inkişafını dəstəkləmək. Layihələrin strukturuna nümunəvi sənaye təcrübələrini və Aİ standartlarını inteqrasiya etmək və iqlim dəyişikliyinin təsirlərinin azaldılması və uyğunlaşma tədbirlərinin milli iqlim məqsədlərinə uyğun olmasını təmin etmək.
- **Sağlamlıq və təhlükəsizlik:** Layihənin adekvat qiymətləndirilməsi, monitorinqi və texniki əməkdaşlıq vasitəsilə peşə və ictimai sağlamlıq, təhlükəsizlik mədəniyyəti və təcrübəsini yaxşılaşdırmaq. Yol təhlükəsizliyi nəqliyyat layihələri, müştəri park idarəetməsi üçün prioritet məsələdir və TƏ vəsaitlərini tələb edə bilər. Əməyin mühafizəsi və təhlükəsizliyi sahəsində gender aspektləri ilə bağlı risklər haqqında məlumatlılığı artırmaq və daha inklüziv iş mühitini dəstəkləmək.
- **Torpağın alınması, məcburi köçürülmə və iqtisadi yerdəyişmə:** Müştəriləri təsirə məruz qalmış insanlara məlumat təminatını və maraqlı tərəflərin konstruktiv iştirakını yaxşılaşdırmağa təşviq etmək. Layihələrin qeyri-mütənasib təsirinə məruz qala biləcək etnik azlıqlar, məcburi köçkünlər və qaçqınlar da daxil olmaqla, həssas əhali qruplarına xüsusi diqqət yetirmək. Torpaq istifadəçiləri hüquqi mülkiyyət sənədlərinə malik olmadıqda, müştərilər Bankın tələblərinə uyğun olaraq kompensasiya və dolanışıq vasitələrinin bərpasını təmin etməlidirlər.
- **Biomüxtəlifliyin mühafizəsi və canlı təbii resursların dayanıqlı idarə edilməsi:** Həssas yerlərdə layihələrin biomüxtəlifliyə təsiri üzrə etibarlı qiymətləndirmələrin aparılmasını və bu zaman ƏMSİ tələblərinin inteqrasiyasını təmin etmək.
- **Maliyyə vasitəçiləri:** Tərəfdaş maliyyə vasitəçilərinin ətraf mühit və sosial sahəyə təsirlər və risklərin idarə edilməsi üzrə adekvat potensiala malik olmasını təmin etmək.
- **Maraqlı tərəflərin cəlb edilməsi:** Müştərilərə layihənin bütün mərhələlərində gender, etnik mənsubiyyət, din və ya digər sosial-iqtisadi xüsusiyyətlərdən asılı olmayaraq, sosial baxımdan uyğun, asanlıqla əlçatan və təhdiddən uzaq, effektiv şikayət mexanizmləri ilə müşayiət olunan konstruktiv məsləhətləşmə və layihə məlumatlarının açıqlanmasını təmin etməkdə dəstək göstərmək.
- **Monitorinq və nəzarət:** Ətraf mühit və sosial sahəyə təsirlərin izlənilməsi və Bank portfeli ilə bağlı miras məsələlərinin həlli üçün müştərilərlə iş aparmaq. Monitorinq, hesabat və təsdiq tələblərini qəbul etmək.
- **İnstitusional imkanların gücləndirilməsi və potensialın artırılması:** Sistematik ətraf mühit və sosial məsələləri həll etmək məqsədilə qabaqcıl təcrübələri təşviq etmək üçün dövlət və özəl sektorlar daxilində potensialın gücləndirilməsi istiqamətində TƏ-lər vasitəsilə imkanlar axtarmaq.

# 8. Donorlarla tərəfdaşlıqların qiymətləndirilməsi

European Bank
for Reconstruction and Development

## Yeni Ölkə Strategiyası müddəti üçün ehtiyacların qiymətləndirilməsi

Azərbaycan üçün qarşıdakı Ölkə Strategiyasının məqsədlərinə nail olmaq üçün müxtəlif formalarda donor maliyyələşməsi zəruri olacaq, o cümlədən:

- İqtisadiyyatın şaxələndirilməsini dəstəkləmək üçün müəyyən edilmiş prioritet sahələr üzrə, KOM-lar üçün məsləhət xidmətləri;
- Enerji və biznes mühiti islahatlarına xüsusi diqqət yetirməklə, siyasətlərin formalaşdırılmasına cəlb olunma;
- Özəl sektorda rəqəmsallaşma səviyyəsini artırmaq üçün qabaqcıl təcrübələrin tətbiqini asanlaşdırmaqla, texniki yardım;
- Ölkənin müəyyən regionlarına hədəflənmiş yaşıl təşəbbüslər üçün nəqliyyat sahəsində texniki yardım.
- Orta Dəhlizdə və şəhər nəqliyyatında rəqəmsal və inzibati texnologiyaların inkişafı da daxil olmaqla, ekoloji cəhətdən təmiz və səmərəli nəqliyyat təcrübələrinin təşviqinə dəstək;
- Xidmətlərlə kifayət qədər təmin olunmayan qrupların maliyyə xidmətlərinə çıxışını artırmaq məqsədilə TMİ-lər vasitəsilə yönləndirilən kredit xətləri üçün güzəştli maliyyələşdirmə;
- Enerji və resurs səmərəliliyini stimullaşdırmaq və Bankın Yaşıl Şəhərlər proqramı çərçivəsində təcrübəsindən istifadə edərək xüsusi Yaşıl İqtisadiyyata Keçid çərçivələri vasitəsilə davamlı və inklüziv infrastrukturun inkişafı üçün güzəştli maliyyələşdirmə;

## Donor vəsaitləri üçün potensial mənbələr

- Son 5 il ərzində SXF Azərbaycan üçün güzəştli resursların mühüm mənbəyi olmuşdur və yaxın gələcəkdə də əhəmiyyətli rolunu qoruyub saxlayacağı gözlənilir.
- Kiçik bizneslərə məsləhət, “Blue Ribbon”, “Qadınlar Biznesdə” və “Start Venture” kimi proqramlar KOM-lar üçün mühüm maliyyə və məsləhət dəstəyi təmin edə bilər.
- Sahibkar qadın və gənclərin maliyyəyə çıxışını artırmağa kömək üçün donorlar tərəfindən dəstəklənən “Qadınlar biznesdə” və “Gənclər biznesdə” kredit xətləri təqdim edilə bilər.
- Yaşıl investisiyaları, rəqəmsal transformasiyanı və maliyyə inklüzivliyini dəstəkləmək üçün Avropa Dayanıqlı İnkişaf Fondunun proqramları vasitəsilə Aİ-dən əhəmiyyətli resurslar əldə edilə bilər. Qonşuluq İnvestisiyası Platforması çərçivəsində əlavə Aİ dəstəyi təmin edilə bilər.
- Azərbaycan Dayanıqlı İnfrastruktur Fondu, E5P, KBTF və İFYTT daxil olmaqla müxtəlif çoxdonorlu fondlardan dəstək almaq hüququna malikdir.
- İsveç, Lüksemburq, Türkiyə kimi bir sıra ikitərəfli donorlar və İqtisadiyyat Nazirliyi tərəfindən dəstəklənən Azərbaycan Tə fondundan Tə qrantları da əldə oluna bilər.

## Maddi baxımdan müyəssərlik üzrə seçilmiş göstəricilər

| | | *AYİB regional Prosentil sıralaması[1]* |
|---|---|---|
| adambaşına düşən ÜDM (AQP, cari ABŞ dolları)[2] | 15,214.7 | 33-cü |
| RİY Ölkəsi | Bəli | Yoxdur |
| RİY-in ÜMG-nə nisbəti (%)[3] | 0.02 | 4-cü |
| Adambaşına düşən RİY (ABŞ dolları -cari qiymətlər)[3] | 0.95 | 4-cü |

## 2019-2023-cü illərdə donor maliyyəsi (€m)[4]




## 2022-2023-cü illərdə güzəştli vəsaitlərdən istifadə[5]




*1. Sadə prosentil sıralaması Azərbaycandan aşağıda olan AYİB ölkələrinin (mövcud məlumatlarla əhatə olunan) payı kimi təqdim olunur 2. BVF (2024) 3. İƏİT (2021) 4. Birgə investisiya vəsaitlərinin məbləğlərinin təqdim edilməsi üçün metodologiya 2022-ci ildə dəyişdirilib. Belə ki, bu göstərici əvvəllər müştərilər tərəfindən imzalanmış müqavilələrə əsaslanırdısa, indi öhdəlik götürülmüş ayırmalara əsaslanır. Tə üçün 2019-2022-ci illər üzrə məlumatlar və 2022-2023-cü illərdə birgə investisiya vəsaitləri öhdəlik götürülmüş ayırmalara əsaslanır, 2019-2021-ci il üzrə birgə investisiya vəsaitləri isə müştərilər tərəfindən imzalanmış müqavilələrə əsaslanır. 5. Ayırılma öhdəliyi götürülmüş donor vəsaitlərinin əsas Keçid Keyfiyyətinə əsaslanır.*

# Əlavə

European Bank
for Reconstruction and Development

XİDMƏTİ İSTİFADƏ ÜÇÜN

# Əlavə 1 – Maddə 1 kontekstində siyasi qiymətləndirmə (1/6)

*Azərbaycanın Bankın Təsis edilməsinə dair Sazişinin 1-ci Maddəsində qeyd edilmiş siyasi prinsipləri əsas tutmaq və tətbiq etmək öhdəliyi bundan əvvəlki*

*Ölkə Strategiyası dövründə insan hüquqlarının və əsas azadlıqların qorunması, xüsusən də toplaşmaq, birləşmək və ifadə azadlıqlarının məhdudlaşdırılması ilə bağlı beynəlxalq səviyyədə narahatlıqlar doğurub. Məhkəmə sistemində, eləcə də korrupsiya ilə mübarizə tədbirlərinin qəbulunda bəzi dəyişikliklər müşahidə olunsa da, mühüm problemlər qalmaqda davam edib.*

Konstitusiyada hakimiyyətin bölünməsi ilə bağlı müddəalar mövcuddur. BMT-nin, ATƏT-in və Avropa Şurasının üzvü olaraq Azərbaycan bu təşkilatlardan irəli gələn beynəlxalq öhdəlikləri yerinə yetirməyi öhdəsinə götürüb. İnsan hüquqları, əsas azadlıqlar və qanunun aliliyi Azərbaycan və Avropa İttifaqı arasındakı münasibətlərin fundamental elementləridir. Digər məsələlərlə yanaşı, institutların gücləndirilməsi və yaxşı idarəçiliyi, o cümlədən korrupsiyaya qarşı mübarizəni ehtiva edən 2018-ci ildə qəbul edilmiş Aİ-Azərbaycan Tərəfdaşlıq Prioritetləri 2024-cü ilə qədər uzadılıb.

Buna baxmayaraq, yuxarıda qeyd olunan beynəlxalq təşkilatların insan hüquqları, demokratiya və qanunun aliliyi ilə bağlı vəziyyətə dair narahatlıqları davam edib.[1] Xüsusilə Aİ "fəal vətəndaş cəmiyyəti üçün əlverişli mühitin yaradılması, insan hüquqlarına, əsas azadlıqlara və beynəlxalq standartlara və götürülən öhdəliklərə uyğun olaraq qanunun aliliyinə hörmətin vacibliyini" vurğulayıb.[2] Son aylarda jurnalistlərin və siyasi fəalların həbsi ilə bağlı beynəlxalq narahatlıqlar da səsləndirilib.[3]

2024-cü ilin yanvar ayında Avropa Şurası Parlament Assambleyası (AŞPA) Azərbaycanın nümayəndə heyətinin etimadnaməsini təsdiq etməmək qərarına gəldi və ölkənin 2001-ci ilin yanvarında Avropa Şurasına qoşulmasından irəli gələn "əsas öhdəlikləri yerinə yetirmədiyi" qənaətinə gəldi.[4] Qətnamə üzrə səsvermədən əvvəl Azərbaycanın nümayəndə heyəti AŞPA-da iştirakını qeyri-müəyyən müddətə dayandırdığını bildirib.

## Azad seçkilər və təmsilçi Hökumət

### Azad, ədalətli və rəqabətli seçkilər

Konstitusiya Azərbaycan xalqının ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə öz idarəetmə formasını seçmək üçün suveren hüququna təminat verir. Azərbaycanın 1991-ci ildə müstəqilliyini əldə etməsindən bəri, beynəlxalq müşahidə missiyaları ölkənin seçki proseslərində çatışmazlıqlar aşkar etmişdir.

Əvvəlki Ölkə Strategiyası dövründə, Azərbaycan 2020-ci ilin fevralında və 2024-cü ilin sentyabrında iki növbədənkənar parlament seçkisi və 2024-cü il fevralın 7-də növbədənkənar prezident seçkiləri keçirmişdir.

1. *AŞPA: Assambleyanın monitorinq prosedurunun gedişi (yanvar–dekabr 2023), İlkin versiya, s.12; Aİ: Azərbaycanla əməkdaşlıq üzrə İcra Hesabatı, Brüssel, 14 iyul 2022, s.8; ATƏT/DTİHB: Seçki Müşahidə Missiyası (SMM), Azərbaycan Respublikası, 9 fevral 2020-ci il, növbədənkənar parlament seçkiləri, Yekun hesabat, Varşava, 17 iyul 2020, s.5.*
2. *Aİ-Azərbaycan Əməkdaşlıq Şurası, 19 iyul 2022, Əsas nəticələr.*
3. *AXFX: Mətbuat katibinin jurnalistlərin və siyasi fəalların həbsi ilə bağlı bəyanatı, 21 dekabr 2023. AŞPA: Azərbaycanın monitorinqi üzrə həmməruzəçilərin bəyanatı, Strasburq, 16 yanvar 2025-ci il; AŞ-nin İnsan Hüquqları üzrə Müvəkkili: Azərbaycan Respublikasının Prezidentinə Məktub, Strasburq, 18 noyabr 2024-cü il*
4. *AŞPA: Qətnamə 2527 (2024), 24 yanvar 2024.*

# Əlavə 1 – Maddə 1 kontekstində siyasi qiymətləndirmə (2/6)

Müstəqillik bərpa edildikdən sonra ilk dəfə olaraq 2004-cü ildə növbədənkənar prezident seçkisi və növbədənkənar parlament seçkiləri Azərbaycanın beynəlxalq səviyyədə tanınmış bütün ərazisində keçirildi.

ATƏT/DTİHB-in rəhbərlik etdiyi Seçki Müşahidə Missiyası "7 fevralda keçirilən növbədənkənar prezident seçkilərinin məhdudlaşdırıcı mühitdə baş tutduğunu və hazırlıqların səmərəli idarə edilməsinə baxmayaraq, tənqidi səslərin boğulması və siyasi alternativlərin olmaması ilə müşayiət olunduğunu" qeyd etdi. Müşahidəçilər həmçinin əlavə etdilər ki, "qanunda və praktikada birləşmək, ifadə və dinc toplaşmaq azadlıqlarına tətbiq edilən uzunmüddətli ciddi məhdudiyyətlər əsl demokratik seçki standartlarına ziddir.«[5]

1 sentyabr 2024-cü il tarixində keçirilən növbədənkənar parlament seçkilərini qiymətləndirən ATƏT/DTİHB və ATƏT Parlament Assambleyasından ibarət olan Beynəlxalq Seçki Müşahidə Missiyası belə nəticəyə gəldi ki, seçkilər "həqiqi plüralizmə imkan verməyən və rəqabətdən məhrum olan məhdudlaşdırıcı siyasi və hüquqi mühitdə keçirilib." Seçkilərin hazırlanmasındakı səmərəliliyi etiraf etsələr də, beynəlxalq müşahidəçilər qeyd etdilər ki, "seçki administrasiyası qərəzsizliyə malik deyildi və seçkilərin əhatəliliyini məhdudlaşdıran formal yanaşma tətbiq etdi." Müşahidəçilər həmçinin vurğuladılar ki, kampaniya "müxalif səslərə davam edən təzyiq fonunda" "demək olar ki, görünməz idi."[6 & 7]

### Hakimiyyətlərin bölünməsi və səmərəli qarşılıqlı nəzarət və tarazlıq

Azərbaycan Respublikasının Konstitusiyası dövlət hakimiyyətinin hakimiyyətlərin bölünməsi prinsipinə əsaslandığını bəyan edir.

İcra hakimiyyəti dövlət başçısı olan Prezidentə mənsubdur. Konstitusiya Prezidentə qanunvericilik və məhkəmə hakimiyyətləri ilə müqayisədə geniş səlahiyyətlər verir. Prezident Baş naziri və Nazirlər Kabinetinin üzvlərini təyin edir və azad edir, həmçinin mərkəzi və yerli icra hakimiyyəti orqanlarını yaradır. Prezident Konstitusiya Məhkəməsinin, Ali Məhkəmənin və digər məhkəmələrin hakimlərini formal olaraq parlamentin təsdiqi üçün təklif edir. Parlamentin razılığı ilə Prezident Baş prokuroru da vəzifəyə təyin edir və vəzifədən azad edir. Prezident 7 il müddətinə seçilir və konkret şərtləri müəyyən etmədən növbədənkənar prezident seçkilərini elan etmək hüququna malikdir.

Qanunvericilik hakimiyyəti tək palatalı Milli Məclis tərəfindən həyata keçirilir və 125 millət vəkilindən ibarət olan bu orqan, beş il müddətinə, birmandatlı dairələrdən majoritar sistem əsasında seçilir. Hakim Yeni Azərbaycan Partiyası (Yeni Azərbaycan Partiyası) qanunverici orqanda və siyasi sistemdə üstün mövqeyini qoruyur.

### Seçilmiş rəsmiləri səmərəli idarəetmə səlahiyyəti

Konstitusiyaya uyğun olaraq, Azərbaycanda dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır və xalq tərəfindən seçilən səlahiyyətli nümayəndələrdən başqa heç kimin xalqı təmsil etmək və xalqın adından müraciət etmək hüququ yoxdur. Əsas siyasi qərarverici birbaşa milli seçkilər yolu ilə seçilən Prezidentdir. Prezident İlham Əliyev 2003-cü ilin oktyabrından bu vəzifəni icra edir. Hakimiyyətə gələndən bəri, Prezident İlham Əliyev dörd dəfə yenidən seçilib. 2009-cu ildə Konstitusiyaya edilmiş dəyişikliklər prezidentlik müddətinə məhdudiyyətləri aradan qaldırmış, 2016-cı ildə Konstitusiyaya edilmiş dəyişikliklər isə prezidentlik müddətini yeddi ilə uzatmışdır.

### Vətəndaş cəmiyyəti, media və iştirak

### Vətəndaş cəmiyyətinin miqyası və müstəqilliyi

Hazırda qeyri-hökumət təşkilatları (QHT-lər) da daxil olmaqla, 4,700-dən çox qeydiyyatdan keçmiş vətəndaş cəmiyyəti təşkilatı (VCT) mövcud olsa da, “Açıq hökumətin təşviqinə dair 2020–2022-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası VCT-lər üçün fəaliyyət mühitini əhəmiyyətli dərəcədə yaxşılaşdırmayıb. VCT-lərin qeydiyyat prosesi uzun və bürokratik olaraq qalır və qeydiyyatdan imtina edilməsi riski mövcuddur. Hakimiyyət orqanları qeyd edir ki, hər hansı qeydiyyatdan imtinadan yuxarı instansiyaya və ya məhkəməyə şikayət edilə bilər, həmçinin qeydiyyat üçün sənədlər yenidən təqdim edilə bilər. Əvvəlki Ölkə Strategiyası dövründə İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (İAHM) Azərbaycana qarşı VCT-lərin fəaliyyətinə maneə törətmək barədə bir neçə işi nəzərdən keçirib.[8] Qrantların qeydiyyatı prosesi isə çətin olaraq qalır. 2017-ci ildə QHT-lərə dair qəbul edilmiş qanunvericilik müddəaları dəyişdirilməyib və qrant müqavilələrinin qeydiyyatı üçün "bir pəncərə" proseduru saxlanılıb. Müsbət addım kimi, Nazirlər Kabineti tərəfindən 2021-ci ilin may ayında qrantların, xidmət müqavilələrinin və ianələrin elektron qeydiyyatı üçün dəyişiklikləri qəbul etməsi qeyd edilə bilər.

*5. ATƏT/DTİHB: Azərbaycan Respublikası, Növbədənkənar prezident seçkiləri, 7 fevral 2024, Əsas tapıntılar və nəticələrə dair ilkin bəyanat, s.1.*

*6. Beynəlxalq Seçki Müşahidə Missiyası: Azərbaycan Respublikası, Növbədənkənar parlament seçkiləri, 1 sentyabr 2024, Əsas tapıntılar və nəticələrə dair ilkin bəyanat, s.1*
*7. Azərbaycan Hökuməti seçkilərin keçirilməsinin qiymətləndirilməsi ilə razılaşmır.*

*8.Aİ: Azərbaycanla Əməkdaşlıq üzrə İcra Hesabatı, 14 iyul 2022, s.4-5*

# Əlavə 1 – Maddə 1 kontekstində siyasi qiymətləndirmə (3/6)



QHT-lər tərəfindən qrantların qeydiyyatdan keçirilməsi və qrantların əldə olunmasına dair həddindən artıq məhdudiyyətlərlə bağlı narahatlıq BMT-nin İnsan Hüquqları Şurasının Ümumi Dövri İcmalının (BMTİHŞ UDİ)[9] dördüncü dövrü çərçivəsində qaldırılıb. 2016-cı ildə Azərbaycanın statusu dondurulduqdan bəri, vətəndaş cəmiyyəti mühitinin yaxşılaşdırılması ilə bağlı əvvəlki tövsiyələr yerinə yetirilmədiyindən, Açıq Hökumət Tərəfdaşlığının (OGP) Rəhbər Komitəsi 2023-cü ilin avqust ayında ölkənin üzvlüyünü həmişəlik ləğv etdi. [10]

Vətəndaş cəmiyyəti sektorunda maliyyələşməyə çıxış imkanı əsas problemlərdən biridir. 2021-ci ildə keçmiş QHT-lərə Dövlət Dəstəyi Şurasını əvəz etmək üçün yaradılmış QHT-lərə Dövlət Dəstəyi Agentliyi, VCT-lərə hökumət qrantlarının idarə edilməsi üçün əsas vasitədir. 2023-cü ildə, VCT-lərə daha çox maliyyə və fəaliyyət sərbəstliyi təmin etmək üçün milli qrant müsabiqələrində ediləcək dəyişikliklər elan edildi.

## Senzurasız fəaliyyət göstərən medianın müstəqilliyi və plüralizmi

Konstitusiya ifadə və media azadlıqları, eləcə də məlumat əldə etmək hüququna təminat verir. Dövlət senzurası qadağandır.

Rəsmi məlumatlara görə, Azərbaycanda 5100-dən çox media orqanı fəaliyyət göstərir və internet istifadəçilərinin ümumi sayı əhalinin 80%-dən çoxunu təşkil edir. Əvvəlki Ölkə Strategiyası dövründə televiziya əsas siyasi informasiya mənbəyi olaraq qalıb və sosial şəbəkələrin əhəmiyyəti artıb. Müvafiq beynəlxalq təşkilatlar müstəqil jurnalistika və medianın fəaliyyətini məhdudlaşdıran tədbirlərə dair narahatlıqlarını dəfələrlə ifadə edib və jurnalistlərin fəaliyyətinə mənfi təsir göstərən, o cümlədən təqib və pis rəftar kimi halları tənqid ediblər.[11] Son zamanlarda müstəqil jurnalistlərin həbs olunması hallarının artması müşahidə olunur. [12]

2022-ci ilin fevral ayında yeni "Media haqqında" Qanun qüvvəyə minib. Hakimiyyət orqanları qanunun qəbulu prosesinin məsləhətləşmə və inklüzivlik şəraitində keçdiyini və qanunun beynəlxalq normaları və təcrübələri nəzərə aldığını bildirsələr də, beynəlxalq hesabatlar qanunu "ifadə azadlığı və media azadlığı hüququna ciddi məhdudiyyətlər tətbiq etdiyinə" və "Azərbaycanda müstəqil jurnalistika və media üçün onsuz da son dərəcə məhdud olan bir mühitdə çəkindirici təsir yaratdığına" görə tənqid edib. [13]

Defamasiyanın dekriminallaşdırılması çağırışlarına baxmayaraq, o, azadlıqdan məhrumetmə ilə nəticələnə biləcək cinayət əməli kimi qalmaqdadır.[14]

## Mülki və siyasi iştirakın çoxsaylı kanalları

Konstitusiyaya əsasən, Azərbaycan vətəndaşlarının cəmiyyətin və dövlətin siyasi həyatında sərbəst şəkildə, bilavasitə və ya öz nümayəndələri vasitəsilə iştirak etmək hüququ vardır. Praktikada mövcud mülki və siyasi hüquq və azadlıqlara qoyulan məhdudiyyətlər nəzərə alınmaqla, bu iştirakın nə dərəcədə sərbəst və maneəsiz olduğu ilə bağlı narahatlıqlar qalmaqdadır. Milli səviyyədə müxtəlif iştirak formaları, o cümlədən, lakin aşağıdakılarla məhdudlaşmayaraq, ictimai müzakirələr, işçi qrupları və ictimai şuralar nəzərdə tutulsa da, VCT-lər dövlət qurumları ilə əməkdaşlıq edərkən qərar qəbul etmə prosesinə və dövlət siyasətlərinin monitorinqinə töhfə vermək baxımından çətinliklərlə üzləşdiklərini bildirirlər. 2023-cü ildə qəbul edilmiş "Sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində, VCT-lər ölkədə sosial xidmətlərin göstərilməsinə cəlb olunacaqlar.

*9. BMT İnsan Hüquqları Şurası (İHŞ): Universal Dövri İcmal (UDİ) – Azərbaycan, Dördüncü Dövr, BMT məlumatlarının toplusu, 31 avqust 2023, s.3.*
*10. Açıq Hökumət Tərəfdaşlığı: Azərbaycan Açıq Hökumət Tərəfdaşlığından həmişəlik uzaqlaşdırıldı, Vaşinqton, 17 avqust 2023.*
*11. ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsi: 12 fevral 2020 və 29 yanvar 2021 tarixli bəyanatlar; ATƏT/DTİHB: SMM, növbədənkənar parlament seçkiləri, 9 fevral 2020, Yekun hesabat, s. 16-17.*
*12. AXFX: Mətbuat katibinin jurnalistlərin və siyasi fəallarının həbsi ilə bağlı bəyanatı, 21 dekabr 2023; ATƏT/DTİHB: Növbədənkənar prezident seçkiləri, 7 fevral 2024, Əsas tapıntılar və nəticələrə dair ilkin bəyanat, s.12. Avropa Parlamenti: "Azərbaycanda vətəndaş cəmiyyətinə və müstəqil mediaya qarşı davamlı repressiyalar haqqında" Qətnamə, Strasburq, 19 dekabr 2024-cü il*
*13. ATƏT MAN: "Media haqqında" Azərbaycan Respublikasının qanununun hüquqi təhlili, 24 fevral 2022; AŞ-nın İnsan Hüquqları üzrə Müvəkkili: Azərbaycan Prezidenti İlham Əliyevə məktub, Strasburq, 18 yanvar 2022; AŞ: Venesiya Komissiyası və İnsan Hüquqları və Qanunun Aliliyi Baş Direktorluğunun Media haqqında qanuna dair Birgə Rəyi, Venesiya, 20 iyun 2022; Aİ-nin Əməkdaşlıq üzrə İcra Hesabatı, s. 5-6; ATƏT/DTİHB: Növbədənkənar prezident seçkiləri, 7 fevral 2024, Əsas tapıntılar və nəticələrə dair ilkin bəyanat, s.12.*
*14. ATƏT/DTİHB: Növbədənkənar prezident seçkiləri, 7 fevral 2024, Əsas tapıntılar və nəticələrə dair ilkin bəyanat, s.11; Aİ-nin Əməkdaşlıq üzrə İcra Hesabatı, s.5-6.*

# Əlavə 1 – Maddə 1 kontekstində siyasi qiymətləndirmə (4/6)

European Bank
for Reconstruction and Development

### Siyasi partiyalar yaratmaq azadlığı və təşkilatlanmış müxalifətin mövcudluğu

Konstitusiya siyasi partiya yaratmaq hüququnu təmin etsə də, əvvəlki Ölkə Strategiyası dövründə ümumi siyasi vəziyyət həqiqi plüralist siyasi mənzərənin olmaması ilə səciyyələnib. Siyasi müxalifət təşkilatlanmış olsa da, hakim partiya ilə ciddi rəqabət apara bilmir. 2024-cü ilin sentyabrında keçirilmiş son parlament seçkilərində ümumilikdə 25 partiya iştirak etsə də, hakim YAP bütün seçki dairələrində namizədləri olan yeganə partiya idi, bir müxalifət partiyası isə vətəndaşların hüquq və azadlıqlarına məhdudiyyətlərə istinad edərək seçiciləri boykota çağırdı.[15] 2023-cü ilin yanvar ayında yeni Siyasi Partiyalar haqqında Qanun qüvvəyə mindi. Hakimiyyət orqanları bunun mövcud qanunvericiliyi müasirləşdirmək və möhkəmləndirmək və siyasi partiyanın yaradılması prosesini tənzimləmək ehtiyacına əsaslandığını irəli sürsələr də, Venesiya Komissiyası və ATƏT/DTİHB qanunu "ölkədə plüralizm üzərində əlavə çəkindirici təsirlər yaratma riski daşıyan bir sıra yeni, ciddi problemli müddəalar gətirdiyinə görə" tənqid etdi.[16]

### Qanunun aliliyi və ədalət mühakiməsinə çıxış

### Qanunun aliliyi

Konstitusiya ölkənin ali qanunudur. Ədalətli məhkəmə araşdırması hüququ qanunvericilikdə nəzərdə tutulur. Son dövrdə bəzi irəliləyişlərə baxmayaraq, Azərbaycan İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (İAHM) icra edilməmiş qərarlarının sayının ən yüksək olduğu ölkələrdən biridir və "hələ də ciddi struktur xarakterli və ya mürəkkəb problemlərlə üzləşir."[17] İAHM qərarlarının icrasının yaxşılaşdırılması 2022-2025-ci illər üzrə Azərbaycan üçün AŞ Fəaliyyət Planının vacib prioritetidir.

### Məhkəmə hakimiyyətinin müstəqilliyi

Konstitusiyaya görə, Azərbaycan Prezidenti məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır. Əvvəlki Ölkə Strategiyası dövründə, Azərbaycan məhkəmə sistemində islahatları gücləndirmək üçün 2019-cu ildə imzalanmış müvafiq prezident fərmanının icrası çərçivəsində əlavə addımlar atdı. Ədliyyə Nazirliyi rəqəmsal alətlər təqdim etdi və elektron dövlət xidmətləri təmin etdi, həmçinin, məhkəmə qərarlarının icrası yaxşılaşdırılmağa davam etdi. 2023-cü ilin iyun ayında parlament tərəfindən təsdiq edilmiş Məhkəmə-Hüquq Şurasının (MHŞ) islahatı, müvafiq beynəlxalq təşkilatlar tərəfindən xüsusilə müsbət qarşılandı. MHŞ-də hakimlərin sayı artırılıb və 15 üzvdən 9-u Hakimlərin Konfransı tərəfindən seçilib. Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvlərinin sayını artırmaq üçün də addımlar atılıb. Buna baxmayaraq, məhkəmə hakimiyyətinin müstəqilliyini təmin etmək və məhkəmə sisteminə ictimai etimadı bərpa etmək üçün əlavə tədbirlərə ehtiyac var.[18]

### Hökumət və vətəndaşlar qanun qarşısında bərabərdirlər

Konstitusiya bütün vətəndaşların qanun qarşısında bərabərliyini təmin edir. Lakin "icra hakimiyyətinin Prokurorluq üzərindəki həddindən artıq təsiri" və "məhkəmə hakimiyyətinin qərəzsizliyi və səmərəliliyi ilə bağlı qalan problemlər" bu hüquqa təsir göstərməyə davam edir.[19]

### Korrupsiyanın qarşısının alınması üçün səmərəli siyasət və qurumlar

Əvvəlki Ölkə Strategiyasının qəbulundan bəri, xırda korrupsiyanı azaltmaq və yüksək səviyyəli korrupsiyaya qarşı mübarizə aparmaq üçün addımlar atılmış və Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO) Dördüncü Qiymətləndirmə Mərhələsində Azərbaycana tövsiyələrinin həyata keçirilməsində müəyyən irəliləyiş əldə edilmişdir. Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022—2026-cı illər üçün hərtərəfli Milli Fəaliyyət Planı qəbul edilib. Geniş istifadə edilən ASAN xidmət mərkəzlərinin sayı 2015-2024-cü illərdə 9-dan 27-ə çatıb. Buna baxmayaraq, korrupsiya ciddi problem olaraq qalıb. Parlament üzvləri, hakimlər və prokurorların əmlakının açıqlanması üzrə səmərəli sistemin olmaması kimi hələ də həll edilməli olan bəzi mühüm məsələlər qalır.[20]

*15. BSMM: Azərbaycan Respublikası- Növbədənkənar Parlament seçkiləri, 1 sentyabr 2024, Əsas tapıntılar və nəticələrə dair ilkin bəyanat, s.11-12*
*16. AŞPA: Monitorinq prosedurunun gedişi (Yanvar-Dekabr 2023), s.12; ATƏT/DTİHB: EQM hesabatı, s.6; Venesiya Komissiyası (VK) və ATƏT/DTİHB: Siyasi partiyalar haqqında Qanuna dair Birgə Rəy, Venesiya, 13 Mart 2023.*
*17. AŞPA: Monitorinq prosedurunun gedişi (Yanvar-Dekabr 2023), s.13.*
*18. Həmin mənbə, s.12-13; Aİ-nin Əməkdaşlıq üzrə İcra Hesabatı, s.8; Avropa Parlamenti: Aİ-Azərbaycan münasibətləri haqqında Qətnamə, Strasburq, 15 Mart 2023.*
*19. Aİ-nin Əməkdaşlıq üzrə İcra Hesabatı, s.8-9;*

# Əlavə 1 – Maddə 1 kontekstində siyasi qiymətləndirmə (5/6)

European Bank
for Reconstruction and Development

Mərkəzi hökumətlərdə (ali icra funksiyaları) və hüquq-mühafizə orqanlarında korrupsiyanın qarşısının alınması və dürüstlüyün təşviqi üzrə Beşinci Dövrə üzrə Qiymətləndirmə Hesabatı 2023-cü ilin mart ayında Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO) tərəfindən təsdiqlənib, lakin hələlik səlahiyyətli orqan tərəfindən nəşr üçün təsdiq edilməyib. [21] "Transparency International" təşkilatının Korrupsiya Qavrama İndeksinə görə, Azərbaycan 2023-cü ildə 180 ölkə arasında 154-cü yerdə qərarlaşıb (balı 23 olmaqla, 2022-ci illə müqayisədə dəyişməyib).

## Mülki və siyasi hüquqlar

### Söz, məlumat, din, vicdan, yerdəyişmə, birləşmə, toplaşma və xüsusi mülkiyyət azadlığı

BMT, ATƏT və AŞ-nın üzvü olan Azərbaycan mülki və siyasi hüquqların qorunması sahəsində əsas beynəlxalq müqavilələri ratifikasiya etmişdir. Azərbaycan Respublikasının Konstitusiyası da insan ləyaqətinə, əsas hüquq və azadlıqlara təminat verir.

2023-ci ildə Azərbaycan BMTİHŞ-nin Universal Dövri İcmalı (UDİ) çərçivəsində dördüncü dövri baxışı başa çatdırıb.[22]

Müvafiq beynəlxalq təşkilatlar, o cümlədən ÜDİ çərçivəsində hesabatvermə prosesi göstərir ki, insan hüquqlarının və əsas azadlıqların qorunmasının təmin edilməsində çatışmazlıqlar, xüsusilə toplaşma, birləşmə və ifadə azadlıqlarına qoyulan məhdudiyyətlər ciddi narahatlıq doğurmağa davam edir. Müxalifət qrupları tərəfindən təşkil olunan ictimai yığıncaqlara icazə verilməməsi halları olub və keçiriləndə isə onlar çox vaxt polis tərəfindən dağıdılıb. Müxalif siyasi fəalların və insan hüquqları müdafiəçilərinin təqib, həbslər, saxlanılmalar və məhkəmə işləri vasitəsilə repressiyaya məruz qalması ilə bağlı narahatlıqlar davam edir.[23]

Aİ son həbslərin "siyasi motivli ittihamlarla" həyata keçirildiyini qiymətləndirib və Azərbaycanı "öz əsas hüquqlarını həyata keçirdiklərinə görə" həbs edilmiş bütün şəxslərin azad edilməsinə çağırsa da,[24] Azərbaycan hökuməti həbslərin "qanun çərçivəsində" konkret cinayət və ya inzibati xətalar törətməklə bağlı həyata keçirilməsində təkid edir.

### Qadınlar, etnik və digər azlıqlar üçün siyasi inklüzivlik

Konstitusiya qadınlarla kişilər arasında hüquqların bərabərliyini təmin edir və irq, etnik mənsubiyyət, din, cins və ya siyasi və sosial mənsubiyyət əsasında hüquqların və azadlıqların məhdudlaşdırılmasını qadağan edir. Ayrı-seçkilik əleyhinə hərtərəfli qanunvericiliyin və siyasət çərçivəsinin qəbul edilməsi yolu ilə müsbət nəticələr əldə edilə bilər.[25]

2024-cü ilin 1 sentyabr tarixində keçirilən növbədənkənar parlament seçkilərində qeydə alınmış namizədlərin 30%-ni qadınlar təşkil edirdi ki, bu da əvvəlki seçkilərdəki 21%-ə görə əhəmiyyətli bir artımdır. 2019-cu ilin dekabrında keçirilən son bələdiyyə seçkilərində seçilən qadınların sayında, eləcə də prokurorluqda çalışan qadınların sayında da əhəmiyyətli bir artım (38,8%) müşahidə olundu. Parlamentin sədri qadın idi. Buna baxmayaraq, qadınlar siyasi və ictimai həyatda az təmsil olunmaqda davam edirlər. Səlahiyyət müddəti başa çatan parlamentdə qadınlar yerlərin cəmi 18,6%-ni tuturdu və qadınlar nazir (Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi istisna olmaqla) vəzifəsi tutmurdu. Qadınların siyasi və ictimai həyatda iştirakının artırılması xüsusi hüquqi tədbirlərin, məsələn, kvotaların qəbul edilməsi ilə gücləndirilə bilər.[26] Azərbaycan ümumilikdə qadın hüquqlarının qorunması üçün güclü milli hüquqi çərçivəyə malikdir və məişət zorakılığının qarşısının alınması üzrə normativ-hüquqi çərçivəni təkmilləşdirmək üçün addımlar atılıb. 2020-ci ilin noyabr ayında "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı" qəbul edildi. Lakin ölkə Avropa Şurasının "Qadınlara qarşı zorakılıq və məişət zorakılığın qarşısının alınması və onunla mübarizə haqqında" Konvensiyasını (İstanbul Konvensiyası) imzalamayıb.[27]

*20. Həmin mənbə; həmçinin bax: BMTİHŞ: UDİ – Azərbaycan, Dördüncü Dövr, BMT məlumatlarının toplusu, s.2.*
*21. GRECO: 95-ci Plenar iclas, Qərarlar, Strasburq, 1 dekabr 2023, s.8.*
*22. BMTİHŞ: UDİ – Azərbaycan, Dördüncü Dövr, İşçi Qrupunun Hesabatı, 28 dekabr 2023.*
*23. Aİ: Əməkdaşlıq üzrə İcra Hesabatı, s.5-6; AŞPA: Monitorinq prosedurunun gedişi (Yanvar-Dekabr 2023), s.13; ATƏT/DTİHB: EQM hesabatı, 22 dekabr 2023, s.4, AP: Aİ-Azərbaycan münasibətləri haqqında Qətnamə, 15 Mart 2023. AŞPA: Azərbaycanın monitorinqi üzrə həmməruzəçilərin bəyanatı, Strasburq, 16 yanvar 2025-ci il; AŞ-nin İnsan Hüquqları üzrə Müvəkkili: Azərbaycan Respublikasının Prezidentinə məktub, Strasburq, 18 noyabr 2024-cü il; EP: "Azərbaycanda vətəndaş cəmiyyətinə və müstəqil mediaya qarşı davamlı repressiyalar haqqında" Qətnamə, Strasburq, 19 dekabr 2024-cü il.*
*24. AXFX: Mətbuat katibinin Azərbaycanda insan hüquqları vəziyyəti haqqında bəyanatı, 29 May 2024.*
*25. BMTİHŞ: UDİ – Azərbaycan, Dördüncü Dövr, BMT məlumatlarının toplusu, s.2.*
*26. ATƏT/DTİHB: Növbədənkənar prezident seçkiləri, 7 fevral 2024, Əsas tapıntılar və nəticələrə dair ilkin bəyanat, s.2 və 4; BSMM: Azərbaycan Respublikası- Növbədənkənar parlament seçkiləri, 1 sentyabr 2024, Əsas tapıntılar və nəticələrə dair ilkin bəyanat, s.2; BMT-nin Qadınlara qarşı Ayrı-seçkiliyin Ləğvi üzrə Komitəsi (CEDAW), Azərbaycanın altıncı dövri hesabatı ilə bağlı Yekun müşahidələr (2022-ci il), bəndlər 9, 15, 19 və 27.*
*27. Aİ: Əməkdaşlıq üzrə İcra Hesabatı, s.7-8.*

# Əlavə 1 – Maddə 1 kontekstində siyasi qiymətləndirmə (6/6)

European Bank
for Reconstruction and Development

Azərbaycan multikultural və çoxdinli xarakterə malikdir. Aİ və AŞ-na görə, Azərbaycanın multikulturalizmi mədəni kimliyin ifadə edilməsini müsbət qarşılasa da, demokratiya ilə bağlı məhdudiyyətlər və əhatəli qanunvericilik və məsləhətləşmə mexanizmlərinin olmaması milli azlıqların öz hüquqlarını tam şəkildə həyata keçirməsinə mane olur.[28] LGBTIQ icmalarının hüquqları tam olaraq tanınmır.[29] 2023-cü ilin iyun ayında "Azərbaycanda Bərabərliyin Təşviqi" üçün Ombudsman Aparatının, Xarici İşlər Nazirliyinin, Aİ, AŞ və VCT-lərin nümayəndələrindən ibarət Texniki Komitənin ilk iclası müsbət addım kimi qarşılandı.

## Təzyiq, hədə-qorxu və işgəncədən azadlıq

Azərbaycan BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sını imzalayıb. Konstitusiya və Cinayət Məcəlləsi də bu əməlləri qadağan edir. Bununla belə, beynəlxalq monitorinq orqanları hüquq-mühafizə orqanları tərəfindən işgəncə və ya pis rəftarın davamlı olaraq tətbiq olunması və həbs şəraitinin pis olması ilə bağlı narahatlıqlarını dəfələrlə ifadə ediblər. [30] AŞ-nin İşgəncələrin və Qeyri-insani və ya Ləyaqəti Alçaldan Davranışların və ya Cəzaların Qarşısının Alınması üzrə Komitəsi (CPT) 3 iyul 2024-cü ildə Azərbaycanla bağlı ictimai bəyanat vermək üçün müstəsna bir qərar qəbul edərək, "Azərbaycan hakimiyyət orqanlarının CPT ilə davamlı əməkdaşlıq etməməsi" məsələsini qaldırmışdır.[31]

*28. Eyni mənbə.*
*29. Həmin mənbə.; BMİHŞ: UDİ – Azərbaycan, Dördüncü Dövr, BMT məlumatlarının toplusu 2023, s.9.*
*30. Həmin mənbə., s.3; AŞPA: Monitorinq prosedurunun gedişi (Yanvar-Dekabr 2023), s.13; Aİ: Əməkdaşlıq üzrə İcra Hesabatı, s.7.*
*31. Avropa Şurası CPT: Azərbaycanla bağlı ictimai bəyanat, 3 iyul 2024. Azərbaycan Hökuməti CPT-nin tənqidini qəbul etmədi.*